www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 aprel 2017-ci il Çərşənbə № 75 (6689) Qiyməti 60 qəpik

**Xəbər**

## Deputatların mandatı təhlükədə-yeni qanun hazırlanır

yazısı səh.6-da

**Gündəm**

### Moskvada ÜAK-ın qeydiyyatı ilə bağlı məhkəmə təxirə salındı-maraqlı gəlişmə



Rusiya Ədliyyə Nazirliyinin nümayəndəsi prosesə gəlmədi; **politoloq:** "Putin son anda..."

yazısı səh.4-də

*Sərdar Cəlaloğlu:*

### "Rəsul Quliyevdən küsməmişəm ki..."

yazısı səh.3-də

### Qadağan olunmuş dini təriqət Bakıda yenidən fəallaşıb

yazısı səh.13-də

### Ter-Petrosyan ermənilərə "qul" dedi

yazısı səh.12-də

### "18 yaşadək qadağandır..."- AVCİYA monitorinqin nəticələrini açıqladı

yazısı səh.13-də

### Martin Şultsdan Qarabağla bağlı ilginc təklif

yazısı səh.11-də

### Süni qiymət artımını yaradan kimlərdir?

yazısı səh.10-da

### Tramp niyə sürətlə dəyişir? - iki hədəf

yazısı səh.12-də

### "Eldar Mahmudov çetesi"nə ev dustaqlığı verilməsinin sirri

yazısı səh.6-da

### Başına pul qoyulan terrorçular, prezidentlər və siyasətçilər...

yazısı səh.15-də

### Dustaq ailələrinin əfv ümidləri ilin sonuna qaldı

yazısı səh.3-də

## Sabiq vitse-primyer "ehtiyat skamyadan" çıxır

# ABBAS ABBASOV YENİDƏN KREMLİN LAYİHƏSİNDƏ-RUSİYANIN GİZLİ ADAMI

ÜAK-la bağlı problem ortaya çıxmamışdan öncə xəbərlər vardı ki, A.Abbasov yenidən fəallaşıb, Moskvadakı və Bakıdakı tərəfdarlarını "yeni plan" üçün təzədən başına toplamağa başlayıb; onun hesablaya bilmədiyi isə hakimiyyətin onun "ağaları" ilə hər zaman anlaşmaq imkanının olmasıdır...




yazısı səh.7-də

## Saatlar Bakıda qurulur - ölkəmizə güclənən emissar axınının pərdəarxası

Rusiyanın Xəzərdə "əzələ nümayişi"nə başladığı gündə bu ölkənin baş xəfiyyəsi Bakıya gəldi; Patruşev getməmiş Türkiyə admiralı paytaxtımıza varid oldu - bölgədə nə baş verir?..

yazısı səh.8-də



### Vitse-prezident təyinatı üçün müddət yoxmuş-deputat-dan açıqlama

yazısı səh.6-da



*Sahib Kərimli:*

### "Əli Kərimli hesabat versin görək iki uşağı Londonda necə oxudur?"

yazısı səh.5-də




### Rus jurnalist prezident İlham Əliyevlə 2 saatlıq görüşü haqda danışdı

yazısı səh.9-da

# Abdulla Gül Bakıda



## Ələsgər Süleymanov-45

**Bu gün "Yeni Müsavat" Media Qrupunun baş direktoru Ələsgər Süleymanovun 45 yaş tamam olur. Bu münasibətlə kollektiv olaraq, əziz dostumuzu və iş yoldaşımızı təbrik edirik.**

**Ələsgər Süleymanov 45 illik ömrünün 24 ilini "Yeni Müsavat" qəzetinə və ümumiyyətlə, bu ad altında fəaliyyət göstərən Media Qrupa həsr edib. Bu müddət ərzində acılı-şirinli, böyük bir tarix yaşamışıq. "Yeni Müsavat"ın fəaliyyətində çox çətin dönəmlər olub. Bütün bu zamanlar üçün qəzetin və kollektivin əsas dayaq nöqtələrindən biri də Ələsgər Süleymanov olub. Onun imzası geniş oxucu auditoriyasında az tanına bilər. Lakin print medianın önəmli simaları və xüsusilə də "Yeni Müsavat" kollektivi bilir ki, o, əvəzedilməz təşkilatçı, etibarlı iş yoldaşı, sadə və yandımcanlı media rəhbəridir. Ələsgər Süleymanov öz imzasını "Yeni Müsavat" Media Qrupuna həyat verənlər, onu yaşadanlar sırasına yazdıra bilib. Onun mətbuatdakı fəaliyyəti dövlət tərəfindən də qiymətləndirilib. 2015-ci ildə Ələsgər Süleymanov mediamızın inkişafındakı xidmətlərinə görə Azərbaycan prezidenti tərəfindən "Tərəqqi" medalı ilə mükafatlandırılıb.**

**Gözəl ailə başçısı, Qarabağ doğumlu vətənpərvər vətəndaş, həyatını söz və mətbuat azadlığına həsr edən istedadlı media meneceri olaraq Ələsgər Süleymanov onu tanıyan hər kəsin etibar etdiyi və sevdiyi insandır. Belə bir ünvanı qazanmaqsa həyatda ən böyük səadətdir.**

**Biz öz dostumuzu bu əlamətdar gün münasibətilə bir daha ürəkdən təbrik edir, ona uzun və bərəkətli bir ömür arzulayırıq.**

**Rauf Arifoğlu və "Yeni Müsavat" Media Qrupunun kollektivi**

## "Rosnefteqaz" prezidenti Naftalan neftinin möcüzəsindən danışdı

РОСНЕФТЕГАЗ

**"Rosnefteqaz" şirkəti müalicəvi neftin hasilatı üzərində işləyir. "APA-Economics" xəbər verir ki, bunu "Rusiyanın regionları" jurnalına müsahibəsində "Rosnefteqaz" dövlət korporasiyasının prezidenti Oleq Sitnikov bildirib.**

"Əvvəllər bu cür neft yalnız Azərbaycanda (Naftalanda - red.) var idi. Həmin neftlə insanlar müalicə olunurdu. Hətta kurortlar da var idi, xaricilər də tez-tez ora müalicə üçün səfər edirdilər. Biz Nesterovla (akademik İvan Nesterov - red.) ora getmişdik. Məlum oldu ki, Azərbaycanda bu cür neftin hasilatı yox səviyyəsindədir. Buna baxmayaraq, biz həmin neftin tərkibi barədə məlumat topladıq. Ardınca Yamal neft yatağında bununla bağlı eksperimentlər həyata keçirdik. İnanın ki, bizim neft Azərbaycan məhsulundan heç də geri qalmır! Ardınca bir neçə tibbi tədqiqat apardıq və məlum oldu ki, neft həqiqətən də müalicəvidir. Məhz bundan sonra biz Seçenov adına institutla müqavilə imzaladıq və neftin tərkibinin detallı şəkildə öyrənilməsinə başlanıldı. Burada da özünəməxsus bürokratiya var: neftin insanlara müalicəvi məhsul formasında çatdırılması üçün 10 il tələb olunur. Bunun hesabına, yəni idxal etmədən biz insanlarımızı müalicə edə bilərik. Lakin bu layihənin reallaşdırılması üçün prezidentin (Vladimir Putinin - red.)göstərişi lazımdır. Bilirik ki, onun şəxsi iştirakı olmadan bizdə heç nə işləmir", - deyə O. Sitnikov bildirib.

**Korporasiyanın prezidenti iddia edir ki, bu cür neftlə xərçəngə də qalib gəlmək olar:** "Sadə dillə izah etsək, xərçəng şişi cütü olmayan elektronların hesabına böyüyür. Həmin neftdə də cütü olmayan elektronlar mövcuddur. Bu elektronlar cütləşsə, müalicə mümkündür".

**Azərbaycan prezidenti İlham Əliyev Türkiyənin sabiq prezidenti Abdulla Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



APA-nın xəbərinə görə, dövlət başçısı A. Güllə Bakıda, Türkiyədə və başqa ölkələrdə keçirdiyi görüşləri məmnunluqla xatırlayıb.

"Azərbaycan hər zaman bizim qəlbimizdə, könlümüzdədir" deyən A. Gül Türkiyədə baş nazir və prezidentlərin, o cümlədən özünün də ilk xarici səfərlərini Azərbaycana etməsindən məmnunluğunu ifadə edib.

A. Gül ölkəmizə hər gəlişi zamanı Azərbaycanın sürətlə inkişaf etdiyinin və daha da gözəlləşdiyinin şahidi olduğunu deyib.

Öz növbəsində dövlət başçısı kimi ilk rəsmi səfərlərini Türkiyəyə həyata keçirdiyini məmnunluqla qeyd edən prezident yüksək rütbəli dövlət məmurlarının da ənənəvi olaraq bu cür qarşılıqlı səfərlərinin önəmini vurğulayıb.

Söhbət zamanı dövlət başçısı son bir neçə ildə Azərbaycanda müxtəlif sahələrdə həyata keçirilən genişmiqyaslı islahatlarla bağlı məlumatları diqqətə çatdırıb.

## 300 manata iki otaqlı mənzil

**"Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) ilk layihəsi olan Yasamaldakı şəhərciyin ilk binasının üçüncü, məktəbin isə ikinci mərtəbəsi tikilməkdədir. Paralel olaraq növbəti 15 binanın tikintisinə başlanılıb". "APA-Economics" xəbər verir ki, bunu MİDA-nın direktoru Samir Nuriyev bildirib.**

Onun sözlərinə görə, bu ay növbəti 7 binanın, ümumilikdə isə 22 binanın paralel tikilməsi həyata keçiriləcək: "Bundan əlavə, həm su-kanalizasiya sisteminin, həm də elektrik xətlərinin çəkilməsi işləri həyata keçirilir. Bu layihədə 20 özəl şirkətin iştirakı gözlənilir. Təxminən 2000-2500 nəfərdən artıq yeni iş yerlərinin yaradılması nəzərdə tutulub".

**S. Nuriyev əlavə edib ki, hazırda Hövsan yaşayış kompleksinin baş planı üzərində işlər gedir:** "Bu yaxınlarda işlər başa çatdırılacaq. Həmin ərazidə MİDA üçün 20 hektar torpaq sahəsi ayrılıb. Bu da 3000 mənzilin tikilməsi deməkdir. May ayının 1-dən elektron qeydiyyat prosesinə başlanılacaq".

Direktorun sözlərinə görə, MİDA-nın həyata keçirdiyi layihələrdə aylıq 130-150 manat ödəməklə birotaqlı, 300 manat ödəməklə isə üçotaqlı mənzillərə sahib olmaq olacaq. "Mənzil təminatı prosesində bazar qiyməti nəzərə alınacaq. Azərbaycan İpoteka Fondu orta bazar qiymətinin hesablanmasını hər 6 aydan bir sifariş edib əldə edir. Biz artıq mənzillər satışa çıxarmamışdan öncə fond tərəfindən həmin ərazi üzrə orta bazar qiymətini əldə edəcəyik və çalışacağıq ki, həm uzunmüddətli ödəniş baxımından, həm də nağd ödəniş baxımından sərfəli olsun", - deyə o bildirib.




## Lapşin şikayət verdi

**Bloger Aleksandr Lapşin barəsində seçilmiş həbs-qətimkan tədbirindən apelyasiya şikayəti verilib. Bu barədə APA-ya A. Lapşinin vəkili Eduard Çernin məlumat verib.**

Qeyd edək ki, Nəsimi Rayon Məhkəməsində hakim Babək Pənahovun sədrliyi ilə keçirilən prosesdə A.Lapşinin həbs müddəti 3 ay artırılıb.

Ayrı-ayrı dövlətlərin vətəndaşlığını daşıyan A. Lapşin Azərbaycanın dövlət sərhədini qanunsuz olaraq keçmə, ərazi bütövlüyünü parçalamağa yönələn açıq çağırışlar etmə əməllərinə görə Azərbaycan Baş Prokurorluğunun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaqı aparılan cinayət işi əsasında təqsirləndirilən şəxs qismində cəlb edilərək beynəlxalq və dövlətlərarası axtarışa verilməsi ilə əlaqədar 2016-cı il dekabrın 15-də Belarus Respublikasının hüquq-mühafizə orqanları tərəfindən Minskdə saxlanılaraq, 2017-ci il fevralın 7-də Azərbaycan Respublikasına ekstradisiya edilib.



## Havalar düzəlmir

**Aprelin 12-də Bakı və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Virtualaz.org Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən bildirir ki, gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var.**

Şimal küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu yarımadada gecə 7-9° isti, gündüz 13-17° isti, Bakıda gecə 7-9° isti, gündüz 14-16° isti olacaq.

Tibbi-meteoroloji proqnoza əsasən, aprelin 12-də Abşeron yarımadasında meteoroloji amillərin normal sutkalıq gedişi meteohəssas insanlar üçün əsasən əlverişli olsa da, 13-də atmosfer təzyiqinin enməsi fonunda gündüz arabir güclənən gilavar küləyi bəzi insanlarda narahatlıq hissi yarada bilər.



## Rza Zərrabla Hakan Atillanın cinayət işləri birləşdiriləcək?

**Prokurordan sərt tələb gəlib. Türkiyəli iş adamları Rza Zərrab və Hakan Atilla ilə bağlı cinayət işlərinin birləşdirilməsi təklif edilib. ABŞ-da həbs olunan "Xalqbank" rəhbərinin köməkçisi Hakan Atillanın cinayət işi ilə bir ildir həbsdə olan Rza Zərrabın cinayət işini birləşdirilməsi üçün məhkəməyə ərizə verilib. Xatırladaq ki, Hakan Atilla 27 mart tarixində Nyu-York JFK aeroportundan Türkiyəyə qayıdanda saxlanılaraq həbs olunub. Prokuror Coon H.Kim tələb edib ki, haqqında 2 milyon dollar pul cəzası, 50 il qədər də həbs cəzası tələb olunan H.Atilla üzərində 50 milyonluq pul cəzası, eləcə də 75 il həbs cəzası istənilən R.Zərrabın cinayət işləri birləşdirilsin.**

Coon H. Kim məhkəməyə təqdim etdiyi 29 səhifəlik müraciətdə bildirib ki, hər iki şəxsin "cinayətləri eyni xarakterdə olduğu üçün" onların barəsindəki cinayət işlərinin birləşdirilməsi də mümkündür. R.Zərrab və H.Atilla 24 aprel tarixində Nyu-Yorkda hakim qarşısına çıxacaq.

**❑ Sevinc TELMANQIZI**

## Ultimatumu Rusiyaya özündən əvvəl gəldi

**ABŞ dövlət katibi Reks Tillerson Suriya rejiminə verdiyi dəstəyə görə Rusiyaya ultimatum verib.**

Virtualaz.org "Assosiated press"ə istinadən xəbər verir ki, Tillerson bu barədə Moskvaya səfəri ərəfəsində bildirib. Dövlət katibinin sözlərinə görə, Rusiya ABŞ və sağlam düşüncəli ölkələrlə Əsəd və ona dəstək verən qruplar arasında seçim etməlidir. Tillerson İran və "Hizbullah"ın da yer aldığı həmin qrupun yanında olmağın Rusiyanın uzunmüddətli maraqlarına ziddi olduğunu düşündüklərini deyib.

"Biz Suriya xalqının əzablarını yüngülləşdirmək istəyirik. Rusiya bu gələcəyin bir hissəsi ola və orada mühüm rol oynaya, ya da həmin qrupla müttəfiqliyini saxlaya bilər"-Tillerson bildirib. Dövlət katibi bu bəyanatla Moskvaya səfəri ərəfəsində çıxış edib.

YENİ MÜSAVAT
N 75 (6689) 12 aprel 2017

# “Rəsul Quliyevdən küsməmişəm ki...”

## Sərdar Cəlaloğlu: “Bəlkə də ora getdiyimə görə fikirləşiblər ki, yaxınlaşmışıq”

**Amerikada mühacirətdə yaşayan sabiq spiker, Açıq Cəmiyyət Partiyasının lideri Rəsul Quliyevlə Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu arasında uzun illərdir davam edən soyuq münasibətlərin istiləşdiyi barədə xəbərlər yayılıb. Hətta artıq hər iki siyasətçinin barışdığı, ADP qərargahında R.Quliyevin partiyasına yer ayrıldığı da deyilir.**


Rəsul Quliyev


Sərdar Cəlaloğlu

Bakipost.az-ın məlumatına görə, R.Quliyev ADP-yə yaxınlaşmaqla Azərbaycan müxalifətində öz rolunu gücləndirməyə çalışır. Elə buna görə də okeanın o tayından idarə olunan partiyanın yaxın vaxtlarda başqa siyasi qurumlarla əməkdaşlığa başlayacağı gözlənilir.

**Məsələ ilə bağlı bakipost.az-a açıqlama verən Sərdar Cəlaloğlu qərargahda Rəsul Quliyevin partiyasına yer verilməsi xəbərini təkzib edib:** “Onlara qərargahda yer verməmişik. Sadəcə, kimin ehtiyacı varsa, gəlib bizim qərargahda tədbirlər keçirir. Qərargah mənim atamın deyil ki... Qərargah xalqın istifadə etməsi üçündür. İndi də bizim qərargahda yer var deyə, gəlib tədbirlər və ya iclaslar keçirirlər. Onlara nəsə deyə bilmərəm axı... Hökumət bu yeri mənə verib. Mən də niyə kiməsə verməməliyəm, atamın şəxsi yeri deyil ki...”

**Rəsul Quliyevlə barışması məsələsinə gəlincə, partiya sədri qeyd edib ki, onlar küsülü olmayıb:** “Mən Rəsul Quliyevdən küsməmişəm ki, onunla barışım. Siyasət nədir ki, biz küsüb-barışaq. Bizim aramızda küsülülük olmayıb. Sadəcə olaraq, Rəsulun maraqları bizim maraqlarla üst-üstə düşmədiyi üçün o bizdən ayrılıb getdi. Bu da normal bir şeydir. O elə maraqlarına görə gəlib bizlə birləşmişdi. Yoxsa onun bizlə şəxsi qohumluğu və ya dostluğu yox idi. İndi də başqa qüvvələrlə birləşib. Hər kəsi idarə edən öz maraqlarıdır”.

**Sərdar Cəlaloğlu vurğulayıb ki, hansısa səbəb olduğu halda iki partiyanın əməkdaşlığı baş tuta bilər:** “Bütün partiyalar bir-biriləri ilə əməkdaşlığa meyl etməlidir. Amma yaxın vaxtlarda əməkdaşlıq üçün hər hansı səbəb yoxdur. Səbəb olsa, niyə əməkdaşlıq etməyək? Bizim Rəsul Quliyevlə nə düşmənçiliyimiz, nə də onun haqqında pis fikrimiz var. Sadəcə olaraq, o dövrün şərtlərinə görə o, partiyadan ayrılmaq qərarı aldı və getdi. İndi də özünün partiyasını yaradıb. Burada qeyri-adi bir şey yoxdur. Bu bizi narahat eləmir”.

**Xəbərin nədən qaynaqlanması ilə bağlı qəzetimizə açıqlamasında S.Cəlaloğlu kifayət qədər sərt danışdı:** “Gündəmi doldurmaq üçün belə gic-gic şeylər yazırlar. Əsası olmayan, jurnalist xülyaları ilə dolu bir yazıdır. Bəzən bir partiya nümayəndəsinin digər bir partiya nümayəndəsi ilə görüşdüyünü görən kimi bundan uzağa gedən nəticələr çıxarırlar. Sonradan məlum olur ki, təsadüfən partiya nümayəndələri bir yerdə olublar. Gərək jurnalist bir şeyi ətraflı öyrənsin, sonra bu cür nəticələr çıxan yazı hazırlansın. O partiya ilə aramızda heç bir yaxınlaşma olmayıb. Sadəcə, Rəsul Quliyevin partiyası ilə Funksional Əməkdaşlıq Mərkəzində bir yerdəyik. Orada da müxtəlif partiyalar var, həmçinin Rəsul Quliyevin də partiyası epizodik olsa da iştirak edir. Yaxınlarda o partiyanın yubileyi var idi, bizi də dəvət etmişdilər. Bəlkə də ora getdiyimə görə fikirləşiblər ki, yaxınlaşmışıq. Halbuki orada müxtəlif siyasi qurumların rəhbərləri var idi. Bir partiya məni tədbirinə dəvət edirsə, getməliyəm. Burada nə var ki? Hazırda o partiya ilə heç bir münasibətlərimiz yoxdur”.

Xatırladaq ki, R.Quliyev uzun illər ADP-nin lideri olub. 2007-ci ildə sabiq spiker partiyadan xaric olunduqdan sonra qurum rəsmən iki hissəyə bölünüb. Həmin dövrdən indiyə qədər keçən 10 il ərzində münasibətlər soyuq səviyyədə qalmaqdadır.

❑ Cavanşir ABBASLI

# Dustaq ailələrinin əfv ümidləri ilin sonuna qaldı

## Əliməmməd Nuriyev: “Hər neçə aydan bir əfvin verilməsini gözləmirəm”

**Hər ilin martında verilən əfv sərəncamlarından sonra gözlər qarşıdan gələn önəmli günlərə dikilir. Ötən aydakı əfvdən sonra may ayında və ondan sonrakı aylarda yeni bir sərəncamın veriləcəyi ilə bağlı çoxsaylı xəbərlər dolaşır.**


Əliməmməd Nuriyev

Gələn ay üçün mayın 10-da mərhum prezident Heydər Əliyevin doğum gündə, eləcə də 28 may Respublika günündə sərəncamın ola biləcəyi söylənilir. İyunun 15-dəki Qurtuluş günündə də əfvin olma ehtimalları istisna edilmir. İlin sonlarına qədərki Ramazan və Qurban bayramlarında da sərəncamın imzalanması ehtimallarından söz açılır. 18 oktyabr Müstəqillik günü də müzakirələr sırasındadır.

**Əfv Komissiyasının üzvü Əliməmməd Nuriyev** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, elə illər olub ki, bir neçə əfv sərəncamı imzalanıb: “Bir qayda olaraq, əvvəlki illərin təcrübəsindən çıxış etsək, il ərzində iki əfv sərəncamı imzalanıb. Novruz bayramı və 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günlərində sərəncamlara şahidlik etmişik. Amma praktikada 28 may Respublika günündə, 18 oktyabr Müstəqillik günündə sərəncamların verilmə halları olub. Eyni zamanda Ramazan və Qurban bayramlarında da sərəncamlar verilib. Amma bir məqamı xüsusi qeyd etmək lazımdır ki, sonuncu əfv 423 nəfərə şamil olundu. Bu çox ciddi rəqəm idi. Çox təəssüflər olsun ki, bu sərəncamla bağlı müxtəlif xoşagəlməz fikirlərə rast gəlirik. Kimlərinsə əfv olunmamasından söz açılır. Belə fikirlər ortaya atıldı ki, əfv üçün müraciət etmək lazım deyil. Siyasi qrupların təmsilçiləri daha çox belə fikirlər səsləndirdilər. Amma elə ki, sərəncam imzalanır, başlayırlar ki, bu əfv bizim ümidləri doğrultmadı. Burada əsas olan odur ki, şəxsin özünün müraciəti olmalıdır. Əgər məhbusun yaxınları da müraciət etməyiblərsə, o zaman əfv imzalananda həmin şəxslərin hansı gözləntiləri olmalıdır? Müraciət etmisən ki, adın da siyahıda olsun? İstənilən halda əfv ölkə başçısının konstitusion hüquqlarından biridir. Hər bir dövlətin gücü onun mərhəməti və humanizmindədir. Dövlətimiz hər zaman bu prinsiplərə söykənib və belə də davam edəcək. Konkret hansı gündə əfvin verilmə ehtimallarının yüksək olması barədə nəsə deməyə çətinlik çəkirəm. Doğrusu, hər neçə aydan bir əfvin verilməsini gözləmirəm. Əfv bir dəyərdir, bu dəyəri qorumaq lazımdır. Hesab edirəm ki, optimal, ağlabatan günlərdə ölkə başçısı vətəndaşlarına münasibətdə mərhəmət və humanizm nümayiş etdirib. İnanıram ki, bu hüququn hər zaman tətbiqi prosesi olacaq. Cənab prezidentin özü müəyyən edir ki, əfv nə zaman verilməlidir”.

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Mirvari Qəhrəmanlı ilin sonuna qədər əfv sərəncamının veriləcəyi ehtimallarından söz açdı:** “Əvvəlki illərdə ildə iki-üç dəfə əfv sərəncamları verilirdi. Əfv siyahısına düşən insanlar arasında siyasi məhbusların sayı isə son illərdəkindən çox olurdu. Ötən il bir əfv, bir dəfə də amnistiya oldu. Amnistiya may ayında millət vəkili xanım Mehriban Əliyevanın təşəbbüsü ilə oldu. Düşünürəm ki, bu il də ilin sonunda əfv ola bilər. Və ola bilsin ki, yenə də amnistiya olsun, yaxud il ərzində məhkəmə vasitəsilə bir neçə siyasi məhbus azadlığa buraxılsın. Amma fikrimcə, ola bilsin ki, əfv ilin sonunda olsun”.

❑ Cavanşir ABBASLI

# Həbsdəki hüquqşünas vəkilsiz qalıb

## Yavər Hüseyn: “Onunla yeni müqaviləmiz yoxdur”

**“Ələbbas Rüstəmovu Bakı Apelyasiya Məhkəməsində müdafiə edirdim. Həmin müqavilənin müddəti hazırda bitib. Onunla yeni müqaviləmiz yoxdur” -saxta ittihamlarla həbs olunan tanınmış hüquqşünas Ələbbas Rüstəmovun vəkili Yavər Hüseyn “Yeni Müsavat”a açıqlamasında belə deyib.**



Ələbbas Rüstəmov 2014-cü il iyunun 28-də həbs olunub. Ona qarşı Cinayət Məcəlləsinin 312.2 (rüşvət vermə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham irəli sürülüb. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə tanınmış hüquqşünas irəli sürülən maddələrlə təqsirli bilinərək 7 il azadlıqdan məhrum edilib. İttihama görə, Ə.Rüstəmov hüquqlarını müdafiə etdiyi, Beyləqan sakini, “Prestij-Q” MMC-in direktoru İlham Məmmədovun şikayəti əsasında həbs olunub. İ.Məmmədov cinayət işində olan ifadəsinə görə Ə.Rüstəmov onunla bağlı Vergilər Nazirliyində başlanmış cinayət işinə xitam verilməsi üçün müstəntiqə 100 min manat rüşvət verilməsini təklif edib. İ.Məmmədov bundan sonra Ə.Rüstəmova ofisində 95 min manat pul verib. Bu pulun 5 min manatını vəkil göstərdiyi hüquqi xidmətə görə qonorar kimi götürüb. 90 min manatı isə müstəntiqə vermək üçün ofisində seyfə qoyub. Özü də İlham Məmmədov pulu gətirərək Ələbbas Rüstəmov ona “pulu bura niyə gətirmisən, get vergi borcunu ödə” deyib. İlham Məmmədov isə işi olduğunu deyib, pulun Ələbbas Rüstəmovda qalmasında israr edib. Bundan sonra Ələbbas Rüstəmov seyfi açıb, İlham Məmmədov pulu ora qoyub. Hüquqşünas hətta seyfin açarını da ona vermək istəyib. Lakin İlham Məmmədov ona etibar etdiyini deyərək açarı götürməyib. İlham Məmmədov pulu Ələbbas Rüstəmova verəndən sonra ofisə Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin əməkdaşları daxil olub və vəkil həbs edilib. Ə.Abbasov isə ittihamı qəbul etmir. O, həbsi ərəfəsində ölkə başçısına müdhiş korrupsiya faktları barədə ardıcıl müraciətlər edirdi. Həmin müraciətlərdə bir çox iri ranqlı məmurların adları çəkilirdi. Bu müraciətlərin edildiyi vaxtda Ələbbas Rüstəmovun özünün rüşvət ittihamı ilə həbs olunması bu işin sifarişlə həyata keçirildiyini deməyə əsas verir.

❑ E.HÜSEYNOV

Yeni MÜSAVAT
N 75 (6689) 12 aprel 2017

**Aprelin 11-də Rusiya Ali Məhkəməsində Rusiya Ədliyyə Nazirliyinin Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) qeydiyyatının ləğvinə dair iddiası ilə bağlı məhkəmə iclası təxirə salınıb. APA-nın Moskva müxbirinin verdiyi xəbərə görə, Rusiya Ədliyyə Nazirliyinin nümayəndəsi iclasa gəlmədiyi üçün proses aprelin 25-nə təyin olunub.**

# Moskvada ÜAK-ın qeydiyyatı ilə bağlı məhkəmə təxirə saldı - maraqlı gəlişmə

## Rusiya Ədliyyə Nazirliyinin nümayəndəsi prosesə gəlmədi; **politoloq:** "Putin son anda..."

Qeyd edək ki, Ədliyyə Nazirliyindən bir müddət əvvəl verilən açıqlamada ÜAK-ın fəaliyyətində Rusiya Federasiyasının qanunvericiliyinin pozulduğu bildirilib: "Rusiya Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən nəzarət-təftiş tədbirləri zamanı ÜAK-ın Rusiya qanunvericiliyini, eləcə də öz nizamnaməsinin müddəalarını pozduğu aşkarlanıb. Rusiya Ədliyyə Nazirliyi "İctimai Təşkilatlar haqqında" qanunu əsas götürərək ÜAK-ın Mərkəzi Şurasının Rəyasət Heyətinə aşkar olunan pozuntuların aradan qaldırılması ilə bağlı dəfələrlə xəbərdarlıq edib".

Məlumata görə, təşkilat pozuntuları aradan qaldırmadığına görə Rusiya Ədliyyə Nazirliyi təşkilatın ləğvinə dair inzibati iddia qaldırılması üçün bu il martın 9-da Ali Məhkəməyə müraciət edib.

Qeyd edək ki, bu məsələ Milli Məclisin son iclasında da geniş müzakirə predmetinə çevrilmişdi. Parlament rəhbərliyi, deputatlar, hətta Azərbaycandakı rus icmasının Milli Məclisdəki nümayəndəsi ÜAK-la bağlı verilən qərara kəskin etiraz bildirərək bunun arxasında Rusiya-Azərbaycan münasibətlərini pozmaq istəyən qüvvələrin, o cümlədən erməni lobbisinin dayandığı barədə fikirlər səsləndirmişdilər. Həmçinin Rusiyaya ünvanlanan şifahi və rəsmi müraciətdə 2001-ci ildən fəaliyyət göstərən Ümumrusiya Azərbaycan Konqresi ilə bağlı yaradılmış problemin həllinə inam ifadə olunmuşdu.

Göründüyü kimi, Rusiya Ədliyyə Nazirliyi təyin olunan ilk prosesə nümayəndə göndərmədi. Bu mənada güman olunur ki, Bakıdan səslənən etirazların nəticəsi olub. Ancaq Rusiya hakimiyyət dairələrinə yaxından bələd olan mənbə əməkdaşımızla söhbətində bildirib ki, məsələ ilə bağlı çox uzaqgedən nəticələr çıxarmaq lazım deyil. Mənbəmizin fikrincə, gerçəkdən də ÜAK-ın fəaliyyəti ilə bağlı hüquqi prosedurlar tam yerində olmayıb. Buna görə də Rusiya Ədliyyə Nazirliyi bir neçə dəfə quruma müraciətlə çatışmazlıqların aradan qaldırılmasını istəyib, lakin məsələ həllini tapmayıb. Son nəticədə Rusiya Ədliyyə Nazirliyi sırf hüquqi pozuntuları əsas görürərək məhkəməyə müraciət edib. Mənbə israr edir




ki, burada siyasi məsələ, yaxud erməni barmağı yoxdur. Hətta iddialar var ki, bu işə Rusiyadakı səfirimiz Polad Bülbüloğlunun da səhlənkar yanaşması öz sözünü deyib.

**Milli Məclisin deputatı Zahid Oruc "Yeni Müsavat"a açıqlamasında məsələyə maraqlı prizmadan yanaşdı:** "Rusiya azərbaycanlıları siyasi fəaliyyət arealı axtarışında rəsmi qurumlarla üz-üzə gəlibsə, o zaman günahı kiminsə üstünə atmağa dəyməz. Digər millətlərin təmsilçiləri arasında da mənafe savaşları hər zaman olub. Lakin ÜAK-a bürokratik təzyiqlər 2012-ci ilin "Milyarderlər ittifaqı" layihəsi ilə başlayıb. Rusiya prezidentinin hakimiyyət tranziti dövrünün müxtəlif beynəlxalq gərginliklərlə müşayiət olunduğunu yəqin yaxşı xatırlayırsınız. Bir çoxları Azərbaycanın guya Dmitri Medvedyev üzərindən şimal qonşumuzun siyasi gələcəyini görməsi haqqında Putinə yanlış məlumatlar ötürürdü". **Z.Orucun sözlərinə görə, ÜAK üzərində dolaşan təhlükə buludu o vaxtdan qalır:** "İndi Rusiyada siyasi iyerarxiyanın bir az da yuxarısına qalxan adamlar köhnə layihənin faydasına inanaraq, Azərbaycanın qarşısına eyni daşı atırlar. Qərb paytaxtlarında təşkilatlanan azərbaycanlılar oxşar təzyiqləri görmədiyindən Kreml siyasətçilərinin Bakıya zərbəsindən kimin qazancla çıxacağını hesablamaq o qədər də çətin deyil. Halbuki azərbaycanlılar Rusiya dövlətçiliyinin hərbi və siyasi təhlükəsizliyində hər zaman onlarla birgə səngərdə vuruşublar. İndi əks cəbhəyə itələnən qüvvələrin narazılığı, üstəlik, Moskvanın düşmənlərinin bundan götürəcəyi fayda, o cümlədən Kremlin orbitində özünə böyük imtiyazlar və iqtisadi mövqelər əldə edən qeyri-rus qruplarının dağıdıcı siyasəti azərbaycanlıların boşalmış yerində daha da möhkəmlənə bilər. Tarix göstərir ki, bu, rusların xeyrinə olmayıb". **Ona görə də Z.Oruc hesab edir ki, son anda Putin oyunu durduraraq bir qərarla şahmat taxtasındakı fiqurlara yerlərini göstərəcək.** "Azərbaycan dövlətinin başçısı sözügedən məsələni ölkəmizə səfərə gəlmiş Nikolay Patruşevlə danışıb-danışmağını deyə bilmərəm. Lakin ölkə başçısının ardıcıl və prinsipial bir xarakterə malik olmasına, hər zaman millətimizə hörmət və bərabər hüquq tələb etməsinə rəğmən əminəm ki, məsələ yaxın zamanlarda müsbət həllini tapacaq"-deputat sonda bildirdi.

❑ E.PAŞASOY

# Vaşinqton-Moskva qarşıdurmasında Bakı neytral qalmalıdır

## Dünyanın iki nəhənginin arasındakı gərginliklər Dağlıq Qarabağ probleminin həllini çətinləşdirəcək, yoxsa yeni fürsət yaradacaq; **politoloq:** "Bu halda Rusiyanın Ermənistana yardımı və müdafiəsi də zəifləyəcək"

**Bir sıra müşahidəçilər hesab edir ki, Suriya ətrafında yaşanan gərginliklər növbəti, daha təhlükəli fazaya keçərsə, bu, dünya düzəninin dəyişməsinə qədər davam edə bilər. İndiki situasiyada Vaşinqton və Moskva arasında başlanmış "söz dueli"nin nə ilə nəticələnəcəyini heç kim proqnozlaşdıra bilmir. Aprelin 12-də Moskvaya səfəri nəzərdə tutulan ABŞ dövlət katibi Reks Tillersonun aparacağı danışıqlardan da çox şey asılı olacaq.**



İki nəhəngin arasındakı problemlərin dinc yolla çözümü Azərbaycanın da ciddi maraq dairəsindədir. Bakı balanslı siyasət yürütdüyü üçün hər iki paytaxtla normal münasibətlərini sürdürməyə qərarlıdır, nəinki seçim etməyə, yaxud tərəf tutmağa. Lakin Azərbaycanın iradəsindən kənar hadisələr də baş verə bilər.

Suriya ətrafında baş verənlərin Qarabağ üçün nələr vəd etdiyi də günün suallarındandır. Rusiya Suriyanı tərk edib Qafqazlarda yerləşə, Ermənistanda növbəti bazalar qura, yaxud Gürcüstandakı separatçı bölgələrdə bazalarını genişləndirə bilərmi? Ola bilərmi ki, Suriya anlaşması postsovet məkanının Rusiyanın tam tabeliyinə keçməsini şərtləndirsin? Yoxsa Tramp bu alverə getməz? Qarabağın azadlığı üçün şans yaranır, ya əksinə?

ABŞ-Rusiya gərginliyi Azərbaycan üçün nə vəd edir? Bundan əvvəl iki ölkənin ordu generalının görüş yeri Bakı olmuşdu. İndi artıq vəziyyət kritikdir və az qala müharibə həddindədir. Deməli, ölkəmiz də təhdidlərlə üz-üzə qala bilər. Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin məhz bu ərəfədə Bakıya səfəri, Xəzərdə başlanan irimiqyaslı hərbi təlimlər ölkəmizin savaş nöqtəsindən çox da uzaq olmadığını deməyə imkan verir.

**Rusiyalı politoloq Qriqori Trofimçuk təhlükəli xəbərdarlıq edib. O deyib ki, Amerika müxtəlif vasitələrlə regionda öz təsirini genişləndirəcək.** "Vaşinqton Dağlıq Qarabağ münaqişəsi ilə bağlı da öz yanaşmasını təqdim edəcək və bu yanaşma əvvəlkindən daha kəskin olacaq. ABŞ Rusiyanı Qarabağ münaqişəsinin nizama salınmasından uzaqlaşdırmağa çalışacaq. Xüsusilə Vaşinqton Suriya məsələsində öz mövqeyini irəli çəkməyi bacaracaqsa, Qarabağ üzərində də Rusiyanın mövqelərinə hücum edəcək. Ümumiyyətlə, Suriyada çox şey aşkar olacaq. Biz Rusiyanın ya bütün istiqamətlər üzrə zəifləməsini, ya da möhkəmlənməsini görəcəyik" deyə, rusiyalı politoloq qeyd edib. (publika.az) Hər halda, iki həmsədr ölkənin üz-üzə dayanması Qarabağın taleyinə təsirsiz ötüşməyəcək.

**Politoloq Hikmət Hacızadə deyir ki, Vaşinqton-Moskva münasibətlərindəki gərginləşmə davam edərsə, Azərbaycan baş qoşmamalıdır:** "Amma Amerika Rusiyanı sakitləşdirsə, bu, bizə ancaq xeyir verəcək. Xüsusilə də Qarabağ məsələsində. Bu halda Rusiyanın Ermənistana yardımı və müdafiəsi də zəifləyəcək. Onda Ermənistanla biz özümüz bacaracağıq".

**"ABŞ və Rusiya arasında gərginliyin baş verə biləcəyi gözlənilən idi. Trampın seçkiöncəsi verdiyi bəyanatlara və Rusiya siyasətçilərinin vaxtından tez sevinmələrinə rəğmən, Birləşmiş Ştatların öz strateji maraqlarından geri çəkiləcəyini gözləmək sadəlövhlük olardı. Buna ABŞ-ın siyasi sistemi yol verməzdi və vermədi də". Politoloq Elçin Mirzəbəyli bunu mövcud situasiyanı şərh edərkən söylədi.**

**Onun dediyinə görə, Trampın Rusiya ilə bağlı seçkiöncəsi açıqlamaları və bu açıqlamalara qarşı sərt reaksiyalar əks-efekt verdi:** "Bəlkə də öncədən hesablanmış bir texnologiya özünü doğrultdu. Tramp Rusiyaya qarşı son 10 ilin ən sərt davranışını sərgilədi və Amerika siyasətinin üzünü, eyni zamanda öz xarakterini göstərdi. Son hadisələr, Bəşər Əsədin Rusiya hərbi kontingentinin açıq dəstəyi ilə dinc əhaliyə divan tutması və buna qarşı ABŞ-ın sərt cavabı tamamilə yeni bir reallıq yaradıb. Rusiya bunu gözləmirdi. Bu hadisə Rusiyanın nüfuzuna ciddi və sarsıdıcı zərbə vurub. Kremlin çaşqınlığı öz elçilərini tələm-tələsik müxtəlif ölkələrə göndərməsindən, telefon zənglərindən də açıq-aşkar hiss olunur. Bu hadisədən sonra ABŞ və təbii ki, prezident Tramp geri çəkilməyəcək". **E.Mirzəbəyli hesab edir ki, hər şey Rusiyanın bundan sonrakı davranışlarından asılıdır:** "Əgər Rusiya cavab addımları atmağa səy göstərəcəksə, o zaman daha sərt reaksiyalarla qarşı-qarşıya qalacaq. Tramp üçün geriyə yol yoxdur. O, nəyin bahasına olursa-olsun "rusiyapərəst" yarlığından qurtulmağa və prezidentliyinin ilk dövründə verdiyi uğursuz qərarları kompensasiya etməyə çalışacaq. Obamanın uğursuz prezidentliyi dönəmi sübuta yetirdi ki, Rusiyaya beynəlxalq arenada geniş manevr imkanlarının verilməsi Moskvanın iştahasını daha da artırır. Bu isə öz növbəsində daha çox region ölkələri üçün müəyyən problemlər qaradır. Birqütblü dünya bu qütbün kim tərəfindən idarə olunmasından asılı olmayaraq, təhlükəlidir. Bu qütb Rusiya kimi beynəlxalq öhdəliklərə məhəl qoymamaq kimi tarixi "ənənələri" olan aqressiv bir ölkə olanda vəziyyət daha kritik olur".

**Rəsmi Bakının tutmalı olduğu mövqeyə gəldikdə, politoloq dedi ki, qüvvələr balansının qorunub-saxlanılması təkcə Azərbaycanın deyil, əksər dövlətlərin marağındadır:** "Proseslərin gedişi haqda öncədən fikir söyləmək çox vacibdir. Yaranmış vəziyyətin bizim üçün həm mənfi, həm də müsbət tərəfləri var. Zənnimcə, indi proseslərdə imkan daxilində müşahidəçi mövqeyində dayanmaq daha əlverişlidir". **Rusiyanın bölgədə aktivliyinə gəldikdə isə E.Mirzəbəyli qeyd etdi ki, bu fəallıq Obamanın hakimiyyətinin ilk illərindən artmağa başlayıb və özünün maksimal həddinə çatıb:** "Bu baxımdan, hesab edirəm ki, artıq ABŞ Avropaya da Rusiya təhlükəsinin real olduğunu başa sala bilib. Düşünürəm ki, indi diqqət daha çox Rusiyanın Şərqi Avropaya təsir imkanlarının azaldılmasına yönələcək. Ola bilsin ki, bu, Şərqi Avropada, Baltik və Qara dəniz hövzəsində müəyyən gərginliyin yaranmasına da səbəb olsun. Suriyada da eyni proseslərin davam edəcəyini gözləyirəm. O ki qaldı ABŞ-Rusiya və bu ikitərəfli əlaqələrin maksimum təsir dairəsində olan Türkiyə-Rusiya münasibətlərinin yaxşı və ya pis olmasına və bu münasibətlərin Azərbaycana təsirinə, biz təcrübəmizdə bunun hər iki tərəfini görmüşük. Dövlətləri də insanlar idarə edirlər və bu baxımdan dövlətlərin təbiəti də insanlardan fərqlənmir. Böyük güclər anlaşanda kiçikləri unudurlar".

❑ E.PAŞASOY

YENİ MÜSAVAT
N 75 (6689) 12 aprel 2017

# Keçmiş silahdaşı AXCP və Əli Kərimli haqda ilginc faktlar açıqladı

## Sahib Kərimli: "Partiya sədri olaraq hesabat versin görək iki uşağı Londonda necə oxudur?"

**AXCP sədrliyinə keçmiş namizəd, bir müddət öncə partiya sıralarından xaric edilən Sahib Kərimli "Yeni Müsavat"a müsahibə verib. Partiya sədrinin keçmiş silahdaşı müsahibəsində ölkə müxalifətinin vəziyyəti barəsində danışıb, eləcə də Əli Kərimli barəsində ilginc məlumatları açıqlayıb. Müsahibəni təqdim edirik:**



***- Sahib bəy, hazırda hansı fəaliyyətlə məşğulsunuz?***

- Daha çox fərdi təsərrüfatla məşğulam. Çünki ölkədə siyasət çox məhdud çevrəyə salınıb. Siyasətlə məşğul olmaq artıq çox çətinləşib.

***- AXCP-dən çıxarılmağınızın, sizcə, əsl səbəbi nədir?***

- Qurultayda sədrliyə namizəd olduqdan sonra ciddi basqılarla üzləşdim. Bundan sonra 2018-ci ilə qədər Əli Kərimliyə zaman tanıdım. Ancaq çox təəssüf ki, bir neçə dəfə partiyadan çıxarılma ilə bağlı cəhdlər oldu. İki dəfə Şəki rayon şöbəsində məsələ qoyuldu, ancaq bu, səsvermədən keçmədi. Bu yaxınlarda isə saxta bir protokolla, Məclisin iclası çağırılmadan elan olundu ki, partiyadan uzaqlaşdırılmışam.

***- Uğrunda siyasi məhbus həyatı yaşadığınız partiyadan çıxarılmanız sizə necə təsir etdi?***

- Təbii ki, çox pis təsir etdi. Əslində bütün problemlərin kökündə o dayanır ki, cəmiyyət siyasətlə maraqlanmır və ictimai institutlar inkişaf etmədi. Çox təəssüf ki, bu illər ərzində demokratiya, hüquq maarifçiliyinə ayrılmış qrant layihələri korrupsiyaya uğradı. Vətəndaş cəmiyyəti formalaşmadı. Əgər güclü vətəndaş cəmiyyəti, ictimai rəy olsaydı, partiya sədrliyinə alternativ, 2018-ci ilə qədər vaxt tanımış bir namizəd olaraq partiyadan uzaqlaşdırılmağım mümkünsüz olmalı idi. Yəni Əli Kərimli üzərində ciddi basqı hiss etməli idi ki, bu adam sədrliyə alternativ olub və ictimai rəy var. Biz durmadan deyirik ki, tənqid, alternativ fikir inkişafı şərtləndirən amildir. İnkişafa xidmət edən bir faktı ortadan qaldırmaq, yox etmək ciddi ictimai basqı yaratmalı idi. Ancaq çox təəssüf ki, bütün sahələrdə olduğu kimi, bu sahədə də cəmiyyətin həssaslığı aşağı səviyyədədir. Bu partiyada gəncliyim gedib. Söhbət 25 ildən çox zamandan gedir. Bu illər ərzində təkcə mən deyil, xalq hərəkatının digər iştirakçıları da çox ağır məhrumiyyətlərlə üz-üzə qalıblar. Təsəvvür edin ki, ölkədə birinci, ikinci özəlləşmə proqramı həyata keçirilib və böyük bir vətənpərvər kəsim, müstəqillik mübarizəsində fədakarlıq etmiş insanlar prosesdən kənarda qalıblar. Bu gün ölkənin regionlarında ən kasıb adamlar AXCP-nin, Müsavat Partiyasının üzvləri, xalq hərəkatının iştirakçısı olmuş şəxslərdir. Bu insanların ötən illər ərzində nə ideoloji baxışları, nə də arzuları reallaşdı. Nəticəsizlik bu insanlara həm ailə daxilində, həm də ictimaiyyətdə müəyyən qınaqlar yaradır. Çünki durmadan illər ərzində "bu hakimiyyət gedəcək" deyib, eyni şüarları səsləndirmək, mərkəzdən gələn təlimatlar və ya qəzet səhifələrindən oxuduqları informasiyalarla tənqidi fikir söyləmə, artıq depressiv durum yaradıb.

**"Mübarizəmi sona qədər aparacağam və qurultayda Əli Kərimliyə alternativ olub, qalib gələcəyəm"**

***- Müxalifət partiyalarından müxtəlif səbəblərdən uzaqlaşanlara nə üçün dərhal satqın damğası vururlar?***

- Əli Kərimlinin belə bir ifadəsi var ki, bu mübarizənin alternativi bundan yaxşı mübarizədir. Mən isə deyirəm ki, bu hakimiyyətin alternativi bundan yaxşı sistemdir. Nə qədər ki, YAP idarəetməsinə daha demokratik, ədalətli, sistemli mübarizə ortaya qoyulmayıb, hakimiyyətin də ömrü davam edəcək. Bu illər ərzində AXCP-dən xeyli sayda adam gəlib gedib. Kim mübarizəni hansısa səbəbdən tərk edirsə, yorulursa və ya hakimiyyətlə anlaşırsa, adını satqın qoyurlar. İndi gəlin baxaq, bu gün cəmiyyətin tanıdığı Xalq Cəbhəsi şinelindən çıxan yüzlərlə insan var. Tribunada bir Nurəddin Məmmədli var, bir də Gözəl Bayramlı. Belə çıxır ki, bu ölkədə hər kəs satqındır. Özümüzə sual verək ki, bu insanlar niyə partiyanı tərk edirlər? Doğrudanmı bu partiya ancaq satqın yetişdirməklə məşğuldur. Bəlkə başqa səbəblər barəsində düşünək. Buna görə də partiyada namizədliyimi alternativ olaraq irəli sürdüm.

***- AXCP sədri olsaydınız nəyi dəyişərdiniz?***

- Sonuncu mitinqə diqqət edək. Ölkədə kəskin devalvasiya baş verdi, ciddi sosial problemlər var, eyni zamanda idarəetmədə də qüsurlar az deyil. Ancaq mitinqlərə cəmiyyət tərəfindən heç bir dəstək verilmədi. Müxtəlif səbəblər səsləndirilə bilər ki, vaxt dəyişildi və sairə. Ancaq bütün hallarda mövcud internet resurslarının izlənmə sayından görürük ki, mitinq xəbəri milyondan çox adama çatıb. Bunun müqabilində cəmiyyətdən sıfır dəstək oldu. Orada iştirak edən 2-3 min adam ənənəvi elektorat idi. Cəmiyyət mitinqə çağıran adamın mübarizəsinin səmimiliyinə inanmır. Bir hissə mitinqə buna görə dəstək vermədi. Digər bir hissə isə onun dövlət hakimiyyətini idarə edə biləcək güc olduğuna inanmır. Cəmiyyət hiss etməlidir ki, filankəs mənim baş nazirim, filan kadr təhsildə, başqası səhiyyədə alternativ ola bilər. Bu gün mitinqi elan edən qüvvə cəmiyyətə həmin kadrları təqdim edibmi? Xeyr, etməyib. Yəni AXCP və Milli Şura dediyimiz qurum, çox məhdud kontingentlə əslində cəmiyyətə bir mesajı verir ki, bu hakimiyyətin alternativi bizik, yerdə qalanlar isə satqındırlar.

Normalda bizim ölkədə dəyişikliyə ehtiyac var. Lakin reallıq hissimizi də itirməməliyik. Bu gün, nə bu cəmiyyətin potensialı, nə də dünya şərtləri mövcud hakimiyyəti uzaqlaşdırmaq üçün yetərli deyil. Misal üçün, sonuncu referendum demokratiyanın bütün təməl prinsiplərini kökündən baltaladı. Lakin 15-20 il bundan öncəkindən fərqli olaraq Qərb ölkələri çox açıq şəkildə hakimiyyətə dəstək verdilər. Cəmiyyət də savadsız deyil. Əslində cəmiyyət informasiyanı qəbul edib, təhlil aparır və görür ki, bütün dünya güclərinin maraqlarını uzlaşdıran belə bir həssas regionda bu hakimiyyət üzərində dayanılıb. Cəmiyyət onu əldə edə bilər ki, mövcud sistem yenilənməlidir. Yəni məmur - vətəndaş münasibətləri, əhalinin həyat səviyyəsi tənzimlənməlidir. Bunu yaratmaq üçün isə köklü islahatlara ehtiyac var. Hakimiyyəti islahata məcbur etmək üçün cəmiyyətin gücünü nümayiş etdirmək lazımdır. Bunun üçün mitinq edən siyasi qüvvə cəmiyyətdə nə qədər etiraz edə biləcək ictimai siyasi qurumlar varsa, onlardan istifadə etməlidir. Əgər Müsavat Partiyasına, "NİDA" Vətəndaş Hərəkatına və ya digərlərinə müraciət olunarsa ki, biz sizi mitinqdə görmək istəyirik, təbii ki, həmin insanlar mitinqə gələcəklər. Ancaq aparılan siyasət ondan ibarətdir ki, daima bu siyasi qurumlar cəmiyyətin gözündə satqın, hakimiyyətin adamı kimi göstərilməyə çalışılır. Sanki cəmiyyətə o mesaj verilir ki, yeganə mübarizə aparan qurum bizik və bizi dəstəkləməlisiz. Mən də sual verirəm ki, əgər sən ictimai fəallıq göstərməyə təcrübəsi olanları prosesdən uzaqlaşdırırsansa, heç bir prosesdə iştirak etməyən insanlara necə ümid edə bilərsən ki, onlar meydana gələcəklər?



**"Doğrudanmı bu partiya ancaq satqın yetişdirməklə məşğuldur..."**

***- Əli Kərimlinin uğursuzluğunun səbəbini nədə görürsüz?***

- Partiya konkret olaraq Əli Kərimlinin yaratdığı qurum deyil. Bu, cəmiyyətin əqli mülkiyyətidir. AXC-ni bu xalq yaradıb və o zaman, Əli Kərimli sıra nəfəri idi. "Azadlıq" qəzetini bu cəmiyyət yaradıb və ictimai resursdur. Ona bir sahiblənmə var. Bu ictimai resursun birləşdirici funksiyasını önə çıxarmaq lazımdır. Mən də Müsavat Partiyasının Milli Şuranı tərk etməsi ilə bağlı qərarına tənqidi yanaşmışam. Bu gün də eyni fikirdəyəm. Ancaq Müsavat Partiyası və ya başqa qurumlar dönə-dönə müraciət edirlər ki, birgə mitinq keçirək. Lakin durmadan bu insanları prosesdən uzaqlaşdırırlar. Niyə? Qoyun meydanda 10 minlər görünsün və hakimiyyət də öz üzərində basqı hiss etsin. Mənim ortaya qoyduğum yeni baxış partiyadaxili dinamizmi artıracaqdı. Ancaq buna dəyər kimi baxılmadı. Hesab edirəm ki, insan əgər böyük ictimai prosesə rəhbərlik etmək istəyirsə, hər kəsə açıq olmalıdır. Barışdırıcı olmaq lazımdır.

***- Hesab edirsiz ki, müxalifətin bir araya gələ bilməməsinin səbəbi Əli Kərimli və AXCP-dir?***

- Faktorlar çoxdur. Ancaq AXCP kimi struktura və ya Milli Şura adına iddialı qurumun üzərinə daha çox məsuliyyət düşür. Qurumun adını Milli Şura qoymuşuqsa və onun hədəfləri olaraq demokratikləşmə və sairə bu kimi məsələlərdən danışırıqsa, artıq üzərimizə bu addan dolayı ciddi məsuliyyət götürmüşük. Belə olan təqdirdə bu ada uyğun davranmalıyıq. Ən çox məsuliyyət Əli Kərimlinin üzərindədir.

***- Yeni partiya qurmaq fikriniz varmı?***

- Xeyr, belə bir planımız yoxdur. Hesab edirəm ki, mən sədləri keçməyəcəyəm. Münasibətlərdə dostlar bəzən iradlarını bildirirlər ki, səni çox istəyirik və belə durumun yaranmasının tərəfində deyilik. Buradan yenə də ifadə edirəm ki, mövcud vəziyyətin alınmasında ən az günahkar olan mənəm. Ən böyük günahkar isə partiyadakı mövcud idarəetmə mexanizmi, zehniyyət, yanaşmadır. Mənim heç bir günahım yoxdur. Kimlərsə mənim etirazlarımdan uzağa gedən nəticələr çıxarmasın ki, məni hakimiyyət danışdırır və sairə. Heç kim məni danışdıra bilməz. Öz düşündüklərimi ifadə edirəm.

***- İddialar var ki, AXCP-yə həm də maddi dəstək vermisiniz. Doğrudurmu?***

- Partiya rəhbərliyinə gəlmədən öncə Xalq Cəbhəsində ancaq Ali Məclis üzvü kimi fəaliyyət göstərmişəm. Paralel olaraq biznes fəaliyyəti ilə məşğul olmuşam. 2000-ci ildə Şəkidə ortaya qoyduğumuz mövqeyimizlə, xərclədiyimiz resurslarla insanları inandırırdıq ki, bütün partiyaların təşkilatlanma hüququ var. Yəni partiya üçün bütün resurslarımı sərf edirdim. 2010-cu ildən sonra partiya rəhbərliyinə gəlib, tamamilə siyasətlə məşğul olmağa başladım. O zaman isə fərqli Əli Kərimli gördüm.

***- Necə fərqli?***

- İlk növbədə alternativ fikri qəbul etməyən, fərqli fikrə hörmət etməyən, insanların düşüncəsini öyrənmək istəməyən, lider kimi insanların problemləri ilə maraqlanmayan birini gördüm. Bu, artıq məndə ilkin xəyal qırıqlığı yaratdı. 2011-ci ildə həbsimdən sonra isə müşahidə etdim ki, partiya daxilində bir qrup açıq şəkildə mənə qarşı əks-təbliğat aparır. Dəfələrlə bununla bağlı sədrə bildirdim. Ancaq sonradan məlum oldu ki, bunların arxasında şəxsən özü dayanır. Əli Kərimi ona tanıdığım 2018-ci ilə qədər olan vaxtı gözləməli idi. Bunu həm demokratiya əxlaqı tələb etməli idi, həm dostluq, münasibət, illər tələb edirdi. Çox təəssüf ki, saxta protokol tərtib etdilər. Bu artıq bütün sədləri aşan məqam oldu. Bu zamana qədər bəzi şeyləri ifadə etmirdim. Heç indi də bəzi şeyləri deməyəcəm. Ancaq artıq o fikir yaradılmağa çalışılırsa ki, mən hakimiyyətlə hansısa iş birliyindəyəm, bunu hər kəsin vicdanına buraxıram. Onda mən tələb edirəm ki, partiya sədri olaraq hesabat versin görək iki uşağı necə Londonda oxudursuz? Bundan əvvəl isə Bakıda çox bahalı məktəbdə oxuyurdular. Bu gün Bakıdan hansısa rayona getmək sıravi müxalifətçi üçün çox ciddi problemdir. İki uşağı Londonda oxutmaq, hansı xərclər hesabına başa gəlir? Gəlin şəffaf olaq, hesabatlı olaq. Lider belə olmalı deyil. Lider bütün resursları öz fərdi məqsədləri üçün cəmləməməlidir. Əli Kərimliyə əslində güclü təşkilat lazım deyil. Ona ancaq özünün fərdi reytinqi lazımdır. Mitinqə ona görə az adam gəlir ki, partiyanın idarəetməsində güclü fərdlər yoxdur. Təşkilat isə qartopu effekti ilə yaranır. Əli Kərimli təbii ki, prezident olmaq istəyir, ancaq bunu sistemli şəkildə etsə, artıq təhdidlə üz-üzə qalacaq. Təhdiddən çəkindiyi üçün zəif təşkilat yaradıb, hər kəsi gözdən salır. Ona alət kimi istifadə etmək üçün müvəqqəti adamlar lazım olur. Prosesin içərisində bir adam sağ, təhlükəsiz, həbsdən, maddi məhdudiyyətlərdən uzaq qalır ki, o da Əli Kərimlidir. Mən mübarizəmi sona qədər aparacağam. Bəlli bir mərhələdə üzvlüyümü bərpa edəcəyəm. Tanıdığım sürə bitdikdən sonra qurultayda Əli Kərimliyə alternativ olub, qalib gələcəyəm.

❑ **Əli RAİS**
**Foto: "YM"**

YENİ MÜSAVAT
N 75 (6689) 12 aprel 2017

# Vitse-prezident təyinatı üçün müddət yoxmuş-deputatdan açıqlama

## "Prezident istəsə, vitse-prezident təyin etməyə də bilər"

**Prezident İlham Əliyevin "2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının qüvvəyə minməsi ilə əlaqədar müvafiq hüquqi aktların layihələrinin hazırlanması barədə" sərəncamının icra edilməsi üçün qoyulan son müddət bu gün başa çatır.**



Fazil Mustafa

Sərəncam 12 oktyabr 2016-cı ildə verilib və icra müddətinin 6 ay olduğu xüsusi qeyd edilib. Qeyd edək ki, sərəncamda Nazirlər Kabinetinə altı ay vaxt verilirdi ki, hüquqi-aktların konstitusiya dəyişikliyinə uyğunlaşdırılmasını təmin etsin və dəyişikliklərdən irəli gələn müvafiq hüquqi aktların layihələrini hazırlayıb prezidentə təqdim etsin. Bu müddətin bitməsi üçün 2017-ci il 12 aprel son tarixdir. Nazirlər Kabinetinin sərəncamda nəzərdə tutulan məsələləri nə dərəcədə, tamamilə həyata keçirib-keçirmədiyi barədə hələ ki rəsmi açıqlama verilməyib. Bir sıra siyasilər və hüquqşünaslar isə iddia edir ki, aprelin 12-dək vitse-prezidentlərin təyinatı olmalı idi, bu müddət son tarix sayılır. Birinci vitse-prezident təyinatı artıq həyata keçirilib, lakin vitse-prezidentlərin təyinatı da mütləq aprelin 12-nə qədər reallaşdırılmalıydı.

İxtisasca hüquqşünas olan deputat Fazil Mustafa isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hansısa hüquqşünas və ya siyasətçinin bu cür fikirlər bildirməsi təəccüblüdür. Görünür, belə şəxslər konstitusiyada həyata keçirilən dəyişikliyi dəqiq oxumayıblar.

**Oktyabrın 12-də qüvvəyə minmiş Referendum Aktına əsasən, birinci vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan prezidenti vəzifəyə təyin və vəzifədən azad edir, növbədənkənar prezident seçkisi zamanı dövlət başçısının səlahiyyətləri birinci vitse-prezidentə keçir:** "Prezident vitse-prezident təyinatını edə də bilər, etməyə də bilər. Çünki edib-etməmək məsələsində konstitusiyada imperativ bir göstəriş yoxdur. Prezident istəsə, heç vitse-prezident təyin etməyə bilər. Bu, birbaşa onun səlahiyyətindədir. Qanunda imperativ tələb olmadığı üçün buna müstəsna səlahiyyət kimi baxılmalıdır. Aprelin 12-nə qədər olan müddət vitse-prezidentlik institutunun müəyyən hüquqi mexanizmlərini, fəaliyyət sferasını, vəzifə və səlahiyyətlərinin bütün detallarının müəyyənləşməsi baxımından sərəncamla nəzərdə tutulan müddətdir. Bu müddət heç də vitse-prezidentlərin təyinatı üçün qoyulmuş müddət deyil. 12 aprel müddətinin vitse-prezidentlərin təyin olunub-olunmamasına aidiyyəti yoxdur. Məsələləri bir-biri ilə qarışdırmaq doğru deyil. Nazirlər Kabineti ola bilsin ki, sabah açıqlayar ki, mexanizm hazırdır. Müəyyən əsasnamələrin hazırlanması, vitse-prezident vəzifələrində olan şəxslərin müəyyən statuslarının dəqiqləşdirilməsi, sənədləşdirilməsi vaxt aparan işlərdir. Çünki dəqiq səlahiyyətlər bölgüsü aparılmalıdır ki, məsələn, bilinsin ki, baş nazirin səlahiyyətləri nədir, vitse-prezidentlərin səlahiyyətləri nədir. Səlahiyyət bölgüsü aparılmasa, müəyyən prosedur və idarəetmə problemləri yarada bilər. Bu məsələlər həllini tapandan sonra prezident istənilən vaxt vitse-prezident təyin eləyə bilər. Qanunda konkret tələb qoyulmayıb ki, dəqiq filan vaxtda və ya filan vaxta qədər bu təyinatlar həyata keçirilməlidir. Prezidentin səlahiyyətindədir ki, istədiyi vaxt təyinat həyata keçirsin.

Tapşırığın icrası üçün son müddətdən söhbət gedirsə, Nazirlər Kabineti bir açıqlama verməlidir. Amma vitse-prezidentin təyinatı məsələsinin müddətə bağlanması yanlışdır".

**Deputat konstitusiyada vitse-prezidentin konkret neçə nəfər olmasının da qeyd edilmədiyini vurğuladı:** "Say göstərilmir. Amma anlaşılan budur ki, 1-ci vitse-prezident varsa, minimum bir vitse-prezidentin olması qanunun mahiyyətindən doğur. Qanunda 1-ci vitse-prezident ifadəsi varsa, deməli, vitse-prezident də olmalıdır".

Onu da bildirək ki, konstitusiyaya görə, artıq ölkədə hakimiyyət iyerarxiyasında ikinci rəsmi şəxs baş nazir yox, birinci vitse-prezidentdir. Vitse-prezidentlərin isə sayının iki olacağı deyilir.

❑ **Etibar SEYİDAĞA**





# Deputatların mandatı təhlükədə - yeni qanun hazırlanır

## Deputat etik davranış qaydalarının pozulmasına görə parlamentdən xaric oluna bilər

**"Etik davranışa görə məsuliyyət məsələsi artıq referendum nəticəsində konstitusiyada öz əksini tapıb və buna uyğun olaraq da qanun hazırlanmalıdır. "Deputatların etik davranış qaydaları haqqında" qanun layihəsinin hazırlanması müsbət bir haldır". Bunu Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Tahir Kərimli modern.az-a açıqlamasında deyib.**

Deputat bildirib ki, yeni qanun layihəsinə əsasən deputat etik davranış qaydalarının pozulmasına görə parlamentdən xaric oluna bilər.

"Amma deputatların etik davranış qaydasını pozmasına görə parlamentdən uzaqlaşdırılması dünyanın heç bir yerində yoxdur. Hətta biz görürük ki, dünyanın bir çox ölkələrində deputatlar arasında dava-dalaşlar da olur. Buna görə hansısa hüquqi məsuliyyətə cəlb olunmurlar. Hətta normada belə bir şey var ki, deputat Milli Məclisdə etdiyi çıxışlara görə məsuliyyət daşımır. İndi isə yeni hazırlanan qanun layihəsində deputatın etik davranış qaydasını pozduğuna görə parlamentdən xaric olunması var. Burada da deputatın özü istefa vermədiyindən və ya hər hansı bir hadisə nəticəsində deputatlıqdan kənarlaşmadığından onun pensiya hüququ da pozulur".

**Tahir Kərimli hesab edir ki, deputatların etik davranış qaydalarının pozulmasına görə parlamentdən xaric olunması yolverilməz haldır.**

"Ancaq bu məsələ konstitusiyaya salınıbsa, başqa çarəmiz yoxdur. Əgər etik davranış hüquqi kateqoriyaya aid ediləcəksə, o zaman bunun bir hüquqi termin kimi izahı verilməlidir. Hesab edirəm ki, qanun layihəsi hazırlanarkən bir çox məsələlərə həssas yanaşılmalıdır".

# "Eldar Mahmudov çetesi"nə ev dustaqlığı verilməsinin sirri

## Azərbaycanın məhkəmə praktikasına diqqət edəndə belə təəssürat yaranar ki, qətimkan tədbirinin bir növü - həbs var...



**Azərbaycan qanunvericiliyində qətimkan tədbirinin 10 növü var. Cinayət Prosessual Məcəlləsinə görə şəxs haqqında qətimkan tədbiri seçilərkən, 10 növdən birinə müraciət oluna bilər. Azərbaycanın məhkəmə praktikasına diqqət etsək, hər gün seçilən qətimkan tədbirlərinə nəzər salsaq, belə təəssürat yaranar ki, qətimkan tədbirinin bir növü - həbs var. Qalanları isə elə kağız üzərində qalmaq üçün yazılıb. İstisnalar da yox deyil.**

Cinayət Prosessual Məcəlləsinə (CPM) əsasən, 10 belə tədbir var:

- Ev dustaqlığı
- Girov
- Həbs
- Başqa yerə getməmək haqqında iltizam
- Şəxsi zaminlik
- Təşkilati zaminlik
- Polisin nəzarəti altına verme
- Nəzarət altına vermə
- Komandanlığın müşahidəsi altına vermə
- Vəzifədən kənarlaşdırma.

Bu tədbirlər təhqiqatçı, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror, müstəntiq və məhkəmə tərəfindən seçilə bilər. İlk 3 tədbir - həbs, ev dustaqlığı və girov yalnız təqsirləndirilən şəxs barəsində seçilir. Nəzarət altına vermə - yalnız yetkinlik yaşına çatmayan şəxs barəsində, komandanlığın müşahidəsi altına vermə - yalnız hərbi qulluqçu və ya hərbi toplantıda təlim keçdiyi dövrdə hərbi mükəlləfiyyətli şəxs barədə seçilə bilər.

Ümumiyyətlə isə hər bir halda həbs-qətimkan tədbirinin seçilməsi zəruri deyil. CPM-ə görə, qətimkan tədbirləri təhqiqatçı, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror, müstəntiq və məhkəmə tərəfindən o hallarda tətbiq oluna bilər ki, cinayət təqibi üzrə toplanmış materiallar şübhəli və təqsirləndirilən şəxs tərəfindən müəyyən hərəkətlər edilməsi ehtimalına kifayət qədər əsas verir. Ali Məhkəmənin sədri Ramiz Rzayev hələ 2009-cu ildə Azərbaycanda hakimlərin qətimkan tədbiri kimi həbsə üstünlük verdiklərindən narahat olduğunu bildirmişdi. O, bu məsələdə ciddi dəyişikliyin olacağına ümid etdiyini də açıqlamışdı. Ali Məhkəmədən verilən məlumata görə, bunun üçün xüsusi əyani vəsaitlər hazırlanıb hakimlərə təqdim olunub. Amma vəziyyət dəyişmir. 2000-ci ilə qədər Azərbaycanda həbs-qətimkan tədbiri seçilməsi prokurorluğun səlahiyyətində olub. 2000-ci ildə isə bu səlahiyyət məhkəmələrə verilib. Məqsəd insanların hüquqlarının daha yaxşı qorunmasını təmin etmək idi. Hüquqşünaslar deyir ki, üstündən 10 il keçsə də, məhkəmələr bu səlahiyyətdən istifadə eləmir.

Azərbaycanda ən çox həbs-qətimkan tədbirinin tətbiq edilməsi cinayət prosesini həyata keçirən orqanın, o cümlədən müstəntiqlərin şəxsi maraqlarından çıxış etmələri haqda iddialar var. Məsələn, təqsirləndirilən şəxs barəsində kifayət qədər sübut olmayanda belə müstəntiq, yaxud da prokuror fikirləşir ki, şəxsi həbsdə saxlamaqla onun barəsində ittihamedici faktlar toplamaq daha asan olacaq. Digər maraqlar da var.

Maraqlı bir araşdırma isə 2008-ci ildə aparılmışdı. Həbs qətimkan tədbirlərinin qanuni əsaslılığı yoxlanılmışdı. Üzə çıxmışdı ki, prokurorlar tərəfindən həbs-qətimkan tədbirinin seçilməsi ilə əlaqədar olunan müraciətlərin 98 faizini məhkəmələr təmin edib. Bu hala hətta Ali Məhkəmə rəhbərliyi də təəccüb etmişdi. Eyni zamanda məlum olmuşdu ki, prokurorların yazdıqları təqdimat cümləbəcümlə məhkəmələrin qərarlarında təsbit olunur.

Açıq mənbələrdə - Ədliyyə Nazirliyinin, Məhkəmə Hüquq Şurasının saytlarında çıxarılan qətimkan tədbirləri və növü haqda məlumatlar yoxdur. Bunun özü də qətimkan tədbirlərinin seçilməsi zamanı həbs növünə müraciətlərin çoxluğunu şərtləndirir. Açıq mənbələrdə belə bir məlumatlar olsaydı, yəqin ki, bu gün başqa bir mənzərə müşahidə edilərdi.

Hazırda məhkəmələrin nadir hallarda müraciət etdikləri qətimkan tədbirlərindən biri də ev dustaqlığıdır. Bu yazını hazırlayarkən vəkillərlə əlaqə saxlayıb barəsində həbslə əlaqəli olmayan tədbir seçilmiş şəxslər haqda məlumat istədik. 5 vəkildən heç biri belə bir tədbirin seçilməsini xatırlaya bilmədi. Bu gün barəsində ev dustaqlığı seçilən şəxs ləğv olunmuş MTN-in Əməliyyat Texniki İdarəsinin sabiq rəisi Natəvan Mürvətovadır. Eldar Mahmudovun müavini general Hilal Əsədovun da ev dustağı edilməsi, onunla paralel MTN mərkəzi aparatının rəhbəri Fərhad Vahabov barədə də oxşar qərarın verilməsi haqda bilgilər zaman-zaman mətbuatda yayılıb. Eldar Mahmudovun özünün statusu isə bilinmir. Onun barəsində qətimkan tədbirlərindən hansının seçilməsi haqda məlumat yoxdur.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 75 (6689) 12 aprel 2017

# Sabiq vitse-primyer “ehtiyat skamyadan” çıxır




# Abbas Abbasov yenidən Kremlin layihəsində-tərəfdarlarına nə vəd edib?

Hələ ÜAK-la bağlı problem ortaya çıxmamışdan da belə xəbərlər vardı ki, A.Abbasov yenidən fəallaşıb və Moskvadakı və Bakıdakı tərəfdarlarını “yeni plan” üçün başına toplamağa başlayıb; onun hesablaya bilmədiyi isə hakimiyyətin onun “ağaları” ilə hər zaman anlaşmaq imkanının olmasıdır...

**Rusiya Ədliyyə Nazirliyinin Azərbaycanın diaspora təşkilatı Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) qeydiyyatını ləğv etmək və fəaliyyətini dayandırmaq üçün Ali Məhkəməyə göndərdiyi müraciətdən sonra diqqətlər yenidən iki ölkə arasındakı münasibətləri pozmaq istəyən qüvvələrə yönəlib.**

Azərbaycan Milli Məclisinin yəhudi əsilli deputatı Yevda Abramov mətbuata son müsahibəsində bu mövzuda sensasion sayılacaq iddialar səsləndirib. Deputat ÜAK-ın qeydiyyatı ilə bağlı problemi “Rusiya ilə Azərbaycanın arasına girən qüvvələrin mövcudluğu” ilə izah edib. Y.Abramov deyib ki, “yenidən Azərbaycanın daxilində qarşıdurma və təlatüm yaratmaq üçün 2013-cü il seçkiləri ərəfəsindəki "Milyarderlər ittifaqı" kimi oxşar hadisələr baş verə bilər. Onu bilirəm ki, narazı olan və vaxtilə əldə etdiyi səlahiyyətləri bu gün itirən bəzi şəxslər belə bir addım atıb, suyu bulandırmaq istəyir. Buna oxşar addımlar 4 il öncə də olmuşdu. Həmin vaxt Azərbaycanda prezident seçkiləri yaxınlaşırdı. Seçkilər ərəfəsində həmin qüvvələr özlərinin uydurduğu namizədləri irəli sürürdülər. Ona görə də əgər Rusiyanın Ali Məhkəməsi Ədliyyə Nazirliyinin müraciətini qəbul edərsə, o zaman çox keçməz, onların uydurduğu namizəd də ortaya çıxa bilər" deyə, deputat bildirib.

İsrail hakimiyyəti ilə də əlaqələri olan Y.Abramov parlamentdə ən məlumatlı deputatlardan biri hesab edilir. O, ad çəkməsə də, söhbətin Azərbaycan baş nazirinin sabiq birinci müavini Abbas Abbasovdan getdiyinə açıq işarə edib. Çünki 2013-cü il prezident seçkilərindən öncə “AzərRos”un rəhbəri olan A.Abbasov Moskvada tələm-tələsik Moskva azərbaycanlılarının birliyini - “Milyarderlər ittifaqı”nı yaratmışdı. Bəzi Azərbaycan milyonçularını başına toplayan A.Abbasovun məqsədinin heç də güclü diaspora yaratmaq olmadığı tezliklə üzə çıxdı. Sabiq vitse-primyer Kremlin dəstəyindən ürəklənərək Azərbaycan hakimiyyətinə qarşı bəyanatlar verməyə, hətta Bakını hədələməyə cəsarətləndi. Bakıda Milli Şura quraraq ən yaxın adamı hesab olunan Rüstəm İbrahimbəyovun müxalifətin namizədi olmasına nail oldu.

Hakimiyyətlə bütün körpüləri yandıran A.Abbasovun “prezidentlik iddiası” yarımçıq saxlanıldı, onun Milli Şuradakı namizədi seçkiyə qatılmaqdan imtina etdi, özünə isə bütün yarvarışlarına baxmayaraq Bakıya gəlmək yasaq olundu, Gəncədə deputat olan oğlu 2015-ci il seçkilərində iştirakdan uzaqlaşdırıldı. Nəhayətdə isə ötən ilin oktyabrında “AzerRos”da son görəvini-Ağsaqqallar Şurasına sədrliyi də təhvil verdi, siyasətdən çəkildiyini bəyan etdi.

Amma elə o zaman da aydın idi ki, A.Abbasov xarakterində olan adam “siyasət meydanından” birdəfəlik çəkiləsi deyil, bu, bəlkə də yeni bir oyun hazırlığı üçün “ehtiyat skamyada” dincəlmək şansıdır.

Hələ ÜAK-la bağlı problem ortaya çıxmamışdan da belə xəbərlər vardı ki, A.Abbasov yenidən fəallaşıb və Moskvadakı və Bakıdakı tərəfdarlarını “yeni plan” üçün yenidən başına toplamağa başlayıb. Bildirilirdi ki, A.Abbasov bu dəfə revanş alacağını, onu Bakıya buraxmayan hakimiyyətin hətta ona baş nazir vəzifəsi təklif edəcəyini iddia edir.

A.Abbasov hələ ki gizli fəaliyyətə üstünlük versə də, ona yaxın adamların artıq “donu açılıb”. Məsələn, “AzərRos” da onun ən yaxın adamlarından biri olan qurumun Nijniy-Novqorod təşkilatının Ağsaqqallar Şurasının üzvü Vidadi Abbasov fəal şəkildə ÜAK-ın əleyhinə aşkar təbliğat aparır. Onun ötən həftə contact.az-a verdiyi müsahibə bunu sübut edir.

**V.Abbasov iddia edir ki, ÜAK faktiki olaraq 7 ildir qanunsuz fəaliyyət göstərir. O, Azərbaycan üçün vacib bir qurumla bağlı yaranmış problemdə kimin tərəfində olduğunu açıq etiraf edir.** “Mən 2012-ci ildə hamı üçün mütləq olan təkrar qeydiyyatdan keçə bilməyən təşkilatlar tanıyıram ki, Rusiya Ədliyyə Nazirliyi onların hamısını hələ 2012-2013- cü illərdə ləğv edib. Amma ÜAK üçün Ədliyyə Nazirliyi istisna edib, yeddi il ərzində bu təşkilatın öz fəaliyyətini RF qanunu əsasında rəsmiləşdirməməsinə göz yumub” deyə, o bildirib.

Vaxtilə A.Abbasovla çox yaxın münasibətləri olan Söyün Sadıqovun da buna bənzər fikirlər səsləndirməsi ÜAK-ın qeydiyyatı ilə bağlı məsələnin necə sonunclanmasından asılı olmayaraq, pərdəarxası oyunların daha ciddi məcraya yönəldiyindən xəbər verir.

Təsadüfi deyil ki, Yevda Abramov da baş verənləri “Rusiyada olan qüvvələrin Azərbaycanda 2018-ci ildə keçiriləcək prezident seçkilərinə namizəd hazırlığı” kimi qiymətləndirib. Bu o deməkdir ki, ÜAK-la bağlı problem əslində bir repitisiya-məşq hesab oluna bilər, bunun arxasınca ortaya yeni oyunlar, hətta A.Abbasovu kölgədə qoyan oyunçular da atıla bilər.

Amma belə güman etmək olar ki, 2018-ci il seçkiləri ərəfəsində A.Abbasov Rusiyadakı qüvvələrin maraqlarına indilikdə daha çox uyğun olan fiqurdur. Əvvəla ona görə ki, hakimiyyətlə bütün körpüləri yandıran A.Abbasovun itirəcəyi bir şey qalmayıb. O, hətta özünün vaxtilə dediyi kimi, “imkan verməsələr, Bakıda dəfn də edilməyəcək”. İkinci bir məqam, A.Abbasovun hakimiyyət hərisliyidir. Onu tanıyanların dediyinə görə, bütün kateqoriyadan olan insanlarla (hətta kriminal aləmlə-“YM”.) ünsiyyət qurmaqda usta olan A.Abbasov məhz birincilik iddiası səbəbindən heç vaxt siyasi uğur qazanmayıb, əksinə, təmsil olunduğu yerlərdə intriqa ocaqları yaradıb ki, “AzərRos”la bağlı qalmaqalları xatırlamaq kifayətdir. Nəhayət, A.Abbasov burada hələ də özlərini məharətlə gizlədən adamlarına güvənə bilər. Hansı ki, onların bir neçəsi “Milyarderlər ittifaqı” oyunundan sonra “özünü yandırdı”.

**A.Abbasovun hesablaya bilmədiyi isə hakimiyyətin onun “ağaları” ilə hər zaman anlaşmaq imkanının olmasıdır. Bəlkə də sabiq vitse-primyer də bunları bilir, amma başqa yolu da yoxdur...**

❑ **“YM”**

# Qala bilməyənlərin gedişi



**Xalid KAZIMLI**

**Bizim məhəllədə bir köhnə hərəkatçı var, vaxtilə milli-azadlıq hərəkatının fəallarından olub, AXC üzvü kimi fəaliyyət göstərib, sonradan təşkilat qəlpələnəndə heç bir partiyaya daxil olmayıb, “köhnə cəbhəçi” statusunda qalıb.**

Onun yaşı 60-65 civarında olar, daimi işi-gücü olana oxşamır, amma hər səhər saat 8-də onu çoxmərtəbəli binaların ortaq həyətindəki talvarın skamyasında oturub hava alan görürəm. Adam köhnə kişilər kimi, səhər açılanda evdən çıxır.

O, məni tanıyır, dəfələrlə qısa sürən söhbətlər də etmişik. Əlini dünyadan üzmüş, bütün ambisiyalarından vaz keçmiş adamdır, mənə də yalnız “bu dünyanın, ölkənin axırı necə olacaq” deyə sual verir, ümidverici cavablar almaq istəyir.

Axırıncı dəfə o, bu gün (yazının yazıldığı gün) əvvəlcə ölkənin, sonra da fəallaşmaq istəyən müxalifətin durumunu xəbər aldı, “nəsə bir ümid varmı” deyə soruşdu.

Belə durumlarda adam çalışır ki, həm pafoslu yalanlar (“hər şey yaxşı olacaq”, “az qalıb, bizimkilər gəlir”, “bunların dayağı-zadı qalmayıb, qaçırlar” və s.) danışıb özünü etibardan salmasın. Ancaq adamların ümidini qırmağın da düzgün olmadığını anlayırsan.

Çünki böyük filosof Konfutsi demişkən, yeganə varidatı ümid olan insanlar var və onu da onların əlindən almaq olmaz.

Bu köhnə hərəkatçı da həmin adamlardan biridir. Ümid onun yeganə və tükənməyən mənəvi qidasıdır.

Ona görə də mən az qala bütün gəncliyini gah fəal iştirakçı, gah da qatı azarkeş kimi siyasi mübarizədə keçirmiş bu hərəkatçıya durumu olduğu kimi anlatmağa çalışdım - nə son ümidini qırdım, nə yalandan ümid verdim, dedim, çətindir, bəy, çətindir. Acı-acı köks ötürdü, daha heç nə demədi.

Bu adam gənc olsaydı, yaşı indikindən 30 il az olsaydı, bilirsinizmi, nə edərdi? Çamadanını qablayardı.

Hara gedərdi? Ayağı hara aparardısa, ora, gümanı hara gələrdisə, o yerə yollanardı. Maqadanda yaşayan uşaqlıq dostunun yanına gedərdi, Arxangelskdə alver edən əsgərlik yoldaşına pənah apardı, Ukraynada başını dolandıran qohumunun üstünə gedərdi, Almaniyaya sığınmış hərəkat yoldaşına sığınardı.

Bu gedənlər də ona görə gedirlər, son paltarlarını çamadanlara, son ümidlərini ürəklərinə qablaşdırıb gedirlər. Hər cür yola əl atırlar, saxta sənəd düzəltməyə də qol qoyurlar - təki bu ölkəni tərk edə bilsinlər.

Onlar məhəllə talvarında oturaraq ümidsiz baxışlarla kimlərdənsə ümidverici sözlər eşidərək müvəqqəti ovunmağa təhəmmül edə bilmirlər, anlayırlar ki, oturub gözləməklə, ömürlərinin ən yaxşı illərini mənasız intriqalara, boş gözləntilərə sərf etməklə heç nə olmayacaq.

Onlar yaşadıqları ölkəni dəyişdirməyə, onu daha da yaxşı etməyə güclərinin çatmadığını bilirlər və gücləri ölkə dəyişməyə, cəlayi-vətən olmağa çatır.

Budur, neçə vaxtdır, bu ölkədə “Avropaya sığınanlar”, “saxta mühacirlər” söhbəti bitmir. Bu tezliklə bitməyəcək də.

Çünki ölkədən getmək tendensiyası güclüdür. Həm də gedənlərin bir xeylisi heç də siyasi mühacir kimi getmir, ailə quranlar var, əmək miqrantları var, “yaşıl kart”la gedənlər var və s.

Bu axının qarşısını nə təbliğat-təşviqatla (“gedənlərin heç də hamısı ağ günə çıxmır”-filan), nə də inzibati resurslarla (vətəndaşlıqdan məhrum etmək və s.) almaq mümkün deyil.

Bəziləri ölkədən gedənləri nəzərdə tutaraq “cəmiyyət öz tör-töküntülərindən təmizlənir” deyə rəy bildirirlər, bu da yanlışdır. Gedənlərin içində yüksək intellektə və ixtisasa sahib olan alimlər, mütəxəssislər də var. Sabah onların övladları beynəlxalq səviyyədə bir uğur qazananda (vaxtaşırı elə xəbərlər də gəlir) həmin fikrin necə yanlış olduğu bariz şəkildə ortaya çıxacaq.

Ölkə elə olmalıdır ki, insanları, həm də vətənsevər insanları özündən kənara itələməsin, əksinə, başqaları üçün də cazibədar olsun.

Ölkə elə olmalıdır ki, ömrünü millətin, ölkənin mənafeyi yolunda əritmiş insanlar ahıl çağlarında talvar skamyasında oturub gözlərindəki sonuncu ümid işartılarını qoruyub saxlamaq üçün başqalarından “bu işlərin axırı necə olacaq, yeni heç ümid yoxdurmu” deyə soruşmasınlar.

Ölkə elə olmalıdır ki, viza düzəldən ofislərin qəbul otağında vətəni birdəfəlik tərk etmək istəyənlərdən ibarət növbələr olmasın.



# Polis olmaq istəyən uşağın gündəliyi

**Zamin HACI**
zaminhaci@gmail.com

"9 yanvar. Leksikon hər beş dəqiqədən bir (orta hesabla) yeni sözlə, bu sabahdan hətta ayrıca ifadələrlə zənginləşir. Onlar şüurda donmuş və indi buzu ərimiş kimi ortaya çıxırlar. Çıxan sözlər istifadədə qalır. Dünənki gündən bəri fonoqrafın qeydə aldıqlarından: "İtələmə", "Əclaf", "Maşının ayaqaltısından düş", "Mən sənə göstərərəm", "Amerikanın etirafı" və "Primus"

*(Bulqakov, "İt ürəyi")*

**Dünən məktəbin qabağında dərsdən çıxan 9-10 yaşlı oğlan uşağından böyüyəndə kim olmaq istədiyini soruşdum. Düşünmədən polis olacağını söylədi. Əlində əzik gündəliyi vardı, sinif yoldaşını bununla zarafatyana vururdu, aldım baxdım. "3"dən yuxarı qiymət yox idi. Təəssüfləndim. Dedim, elə bu cür oxumaqla arzuna çatarsan. Danladım, doğrusu, mənə utanmış kimi göründü. Ümid edirəm, başqa peşə seçər. Pis oxuyan uşağın qanun keşikçisi olmasını istəmirəm - yanlış anlaşılmasın.**

Bunu niyə yazıram? Çünki yazını 12 aprel günü qəzetdə oxuyacaqsınız. İnsanın kosmosa çıxdığı 1961-ci ilin 12 apreli şərəfinə bu gün dünyada Kosmonavtika Günü kimi qeyd olunur. Bizim uşaqlığımız Yuri Qaqarinin gülər üzü altında keçmişdi. Biz, o zamanların uşaqları kosmonavt olmağı arzu edərdik. İndi isə uşaqlar arasında sorğu keçirilir, oğlanların doxsan faizi polis, qızların da elə o qədəri müğənni olmaq arzusunu bildirir.

Mən iddia eləmirəm ki, SSRİ kosmos dövləti idi və sovet uşaqlarının kosmonavt arzusu təbii idi. Ancaq Azərbaycanın polis dövləti olduğunu yazsam yəqin məni tutmazlar. Axı biz senzurasız, azad dövlətin vətəndaşlarıyıq. Hətta xaricdən gəlib jurnalistika dərsi keçirlər, təcrübə öyrədirlər. Xəbər lentində gördüm, İsveçrənin ölkəmizdəki səfirliyi bir jurnalist xanımı dəvət edib Bakıya, o da burda Mətbuat Şurasının patronajlığı altında, çıxmayan qəzetlərin yazmayan jurnalistləri üçün mühazirə oxumuşdur. Yadıma 90-cı illər düşdü. Bir QHT də qrant üçün bənzər tədbir düzəltmişdi, Kanadadan kimsə gəlib bizə guya leksiya oxuyurdu. Bu qardaş özünü elə aparırdı ki, sanki biz əlifbanı təzə öyrənən afrikalılarıq, qəzetçilikdən xəbərimiz yoxdur. Kimsə dözmədi, qayıdıb buna dedi ki, siz nə üçün Kanadada yerli hinduların hüquqlarını pozursunuz? Vəssalam, bununla da gülüşmə düşdü, leksiya getdi işinin dalıyca.

Ancaq bizim peykimiz uçur, o baxımdan bəlkə də kosmik polis dövləti sayılırıq? Kainatda asayişi yaratmaq bizim üzərimizə qoyulsa, marsiançiklərin halını təsəvvür edirəm.

Sözgəlişi, polis nazirliyinin sözçüsü Ehsan Zahidovun adından yayılan "Hostel tipli hotellər milli mentalitetimizə ziddir" açıqlaması da bizim hara qədər getdiyimizin göstəricisidir. Axı mentalitetin polisə nə dəxli var? Polis konkret qanun keşikçisidir, maddə ilə işləməlidir, qanunun hərfinə əməl etməlidir.

Ancaq baxırsan ki, heç kim qanunu saymır. Sosial müdafiə sektorunun işçisi qulağı ağır eşidən, kasıb insanla məzələnib bunun videosunu internetə qoyur. Adam ünvanlı sosial yardım almaq istəyirdi. Təsadüfən elə bugünlərdə bir tanış da xahiş elədi ki, ünvanlı sosial yardım almağın qaydalarını öyrənim. Qarabağ savaşı veteranıdır. 315 manat maaşlı bir işdə çalışır. Himayəsində işsiz xanımı, məktəbli uşağı, 1-ci qrup əlil qardaşı, qardaşının iki uşağı var. Müraciət elədiyi dövlət işçisi ona deyib ki, sənin mobil telefon danışığının konturu çox olub, o üzdən sənə yardım düşmür.

Yenə təsadüfən mən həmin gün ingilis rejissoru Ken Louç-un "Mən Daniel Bleykəm" sosial dramasına baxmışdım. Film 2016-cı ildə Kannda baş ödülü qazanıb. Orda sosial ödəniş almaq istəyən yaşlı, xəstə adamın dövlətin bürokratik aparatı ilə üzləşməsindən bəhs olunurdu. İstəsən bunu "Dünyanın hər yerində qarışıqlıqdır, biz hələ şükürlüyük" deyə yoza bilərsən. Axı bir ara Hollivud filmlərinə əsasən Amerikanın dağıldığını güman edən dövlət xadimlərimiz vardı.

# Saatlar Bakıda qurulur - ölkəmizə güclənən emissar axınının pərdəarxası

## Rusiyanın Xəzərdə "əzələ nümayişi"nə başladığı gündə bu ölkənin baş xəfiyyəsi Bakıya gəldi; Patruşev getməmiş Türkiyə admiralı paytaxtımıza varid oldu - bölgədə nə baş verir?..

**Azərbaycan yenidən regional geosiyasi proseslərin episentrində yer alıb. ABŞ və Rusiya Silahlı Qüvvələri Baş Qərargah rəislərinin Bakı görüşündən sonra bu, növbəti analoji gəlişmə hesab oluna bilər. Belə təəssürat yaranır ki, ölkəmiz ətrafında hansısa mühüm bir proses başlayıb və bu prosesdə Azərbaycana da strateji coğrafi məkan olaraq, özünəməxsus yer ayrılıb.**

Son bir həftədə Bakıya xüsusən də şimaldan emissar axınının artması diqqət çəkir. O sırada ilk öncə Rusiyanın əsas təbliğat ruporlarından olan araşdırmaçı-jurnalist, teleaparıcı Vladimir Solovyovun Bakı səfəri və səfər çərçivəsində prezident İlham Əliyevlə görüşünü qeyd eləmək lazım gəlir. Ardınca Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev Azərbaycana gəldi və prezident İlham Əliyevlə görüşdü. Dünən isə Patruşev Azərbaycan Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevlə bir araya gəlib.

Rəsmi məlumatlara görə, bu təmaslar zamanı ölkələr arasında ikitərəfli münasibətlər, beynəlxalq və regional təhlükəsizlik məsələlərini, o cümlədən Yaxın Şərq, Suriya məsələlərini müzakirə ediblər. "Nikolay Patruşev və Ramiz Mehdiyev Azərbaycan və Rusiya arasındakı əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığını, ikitərəfli dialoqun həmişə etimadlılıq və konstruktivliklə fərqləndiyini qeyd ediblər". Rusiya Təhlükəsizlik Şurasının mətbuat xidmətinin press-relizində belə deyilib. Tərəflər həmçinin təhlükəsizlik sahəsində Rusiya-Azərbaycan əməkdaşlıq məsələlərini də müzakirə ediblər.

*****

Dünən isə Türkiyə Hərbi Dəniz Qüvvələri komandanı donanma admiralı Bülənd Bostanoğlu Azərbaycana 3 günlük rəsmi səfərə gəlib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, səfər çərçivəsində qonağın Müdafiə Nazirliyində görüşü planlaşdırılır. Admiral B.Bostanoğlunun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycanın Hərbi Dəniz Qüvvələri Komandanlığı, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi ilə tanışlığı da nəzərdə tutulub.

Maraqlıdır ki, türk admiralın səfəri Patruşevn Bakını tərk etdiyi günə və Xəzərdə Rusiya hərbi gəmilərinin döyüş hazırlığı vəziyyətinə gətirilməsindən cəmi bir gün sonraya təsadüf edir. Bu olaylar arasında birbaşa bağlılıq olmasa da, əslində məntiqi əlaqə yox deyil. Hər necə olmasa, Rusiyanın Xəzərdə növbətin "əzələ nümayişi"ndən həmişəki kimi, Azərbaycana da pay düşür. Patuşevin Bakı səfərinin həm də Xəzər dənizində belə bir



"güc nümayişi" fonunda reallaşması diqqətdən yayına bilməz.

Belə olan surətdə Türkiyə Hərbi Dəniz Qüvvələri komandanının Bakıda gəlişi müəyyən mənada yerinə düşür və 1 nömrəli təbii müttəfiqimizin Azərbaycana müdafiə xarakterli mesajı kimi dəyərləndirilə bilər. Suriya rejiminə ABŞ-ın məlum raket zərbəsindən dərhal sonra gərginləşən ABŞ-Rusiya, həmçinin Ankaranın bu hücumu dəstəkləməsinin ardınca sərinləşən Rusiya-Türkiyə münasibətləri Azərbaycan üçün də yeni situasiya yaradıb.

İstisna deyil ki, Bakı səfərləri həm də mövcud situasiyada Azərbaycanın mövqeyini və yerini dəqiqləşdirmək niyyəti güdür. Yəni bir növ Bakı da seçimlə üz-üzə qoyulmuş kimidir. Bu seçim son günlər gündəmi zəbt eləmiş Rusiya-ABŞ (NATO) hərbi qarşıdurması fonunda xüsusilə aktual görünür.

*****

Bəs iki fövqəlgüc Suriyaya görə toqquşa bilərmi və o halda bu toqquşma Azərbaycanın maraqlarına hansı təsirləri göstərə bilər?

**"İstənilən halda Rusiya NATO ilə birbaşa hərbi toqquşmaya getməyəcək". Bu sözləri axar.az-a açıqlamasında ABŞ-ın Suriya hökumət qüvvələrinin bazalarına endirdiyi zərbələrdən sonra ABŞ-Rusiya gərginliyinin artması ilə bağlı danışan sabiq dövlət müşaviri Qabil Hüseynli deyib. Politoloq bildirib ki, ABŞ Rusiyaya qarşı hərbi strateji tədbirləri daha da sərtləşdirəcək.**

"Söhbət Rusiyaya qarşı yeni sanksiyaların tətbiqindən gedir. Artıq Konqresdə embarqoların siyahısı dəqiqləşdirilir. Bundan sonra Rusiya üçün ağır günlər başlayacaq. Vaxtilə Rusiyanın Suriya hadisələrində bataqlığa batdığını deyəndə bəziləri bunu istehza ilə qarşılayırdı. Ancaq bu gün aydın olur ki, Rusiya Suriyada çox ciddi problemlə üzləşib. Rusiyanın Suriyadakı hərbi hava zərbələri Moskvanın bu ölkəyə ciddi köməyi anlamına gəlmir. Yaxın vaxtlarda biz ABŞ-ın NATO ilə birlikdə Suriyada irimiqyaslı hərbi əməliyyatlarının şahidi olacağıq. Suriyada Əsədin devrilməsi də bu əməliyyatların tərkib hissəsidir. Bəziləri hesab edir ki, bu, Rusiya-ABŞ toqquşmasına gətirib çıxaracaq. Ancaq Rusiya NATO ilə birbaşa hərbi toqquşmaya getməyəcək. Çünki hərbi qüvvələr nisbəti kəskin şəkildə NATO-nun xeyrinədir. Üstəlik, Rusiyada iqtisadi vəziyyət ürəkaçan deyil. Rusiyanın arxa cəbhəsi ön cəbhəni təchiz etmək qüdrətinə malik deyil. Ancaq Alyans ölkələri texnoloji cəhətdən inkşaf etmiş silah ehtiyatlarına malikdirlər və tez bir zamanda Rusiyanı lokallaşdıra bilərlər. Zənnimcə, Rusiya bundan sonra əvvəlki tək aqressiv olmayacaq və mənasız qarşıdurmalara getməyəcək. Moskva məsələləri kompromislər yolu ilə çözməyə çalışacaq. Əks təqdirdə, Rusiya tarixdə ən böyük məğlubiyyətini yaşaya bilər", - deyə politoloq qeyd edib.

*****

Politoloqun söylədikləri rus emissarların Bakı səfərlərinin pərdəarxasına başqa yandan güclü işıq salır. Belə qənaət hasil olur ki, ABŞ-ın (NATO-nun) Yaxın Şərq, Suriya böhranı ilə bağlı hansısa gizli "yol xəritəsi" var və bu "xəritə" özündə hərbi faktoru da ehtiva edir. Başqa sözlə, Qərbin yeni hərəkət planı Rusiya və Türkiyənin Suriya ilə bağlı maraqlarına da toxunur və böyük bir region təzədən şəkillənmə ərəfəsindədir. Demək, bölgə ilə həmsərhəd ölkə kimi Azərbaycandan böyük güclərin də umacaqları var.

❑ **Analitik xidmət**

# Rus jurnalist prezident İlham Əliyevlə 2 saatlıq görüşü haqda danışdı

## Vladimir Solovyov: "Mən dedim ki, Rusiya Azərbaycanı heç vaxt satmaz, o etiraz etdi, dedi ki, "Putin heç vaxt satmaz"



**Bu günlərdə Bakıda prezident İlham Əliyevlə görüşən rusiyalı teleaparıcı Vladimir Solovyov "Vesti.FM"in birbaşa efirində, "Birbaşa təmas" verilişində həmin görüşün təfərrüatlarını danışıb.**

Virtualaz.org xəbər verir ki, VQTRK-nın aparıcısı İlham Əliyevlə görüşünün iki saat çəkdiyini deyib, Bakıya səfərinin məhz Azərbaycan prezidenti ilə görüşmək məqsədi daşıdığını bildirib. "Mənə çox maraqlı idi-dövlət liderləri ilə söhbətlər həmişə çox maraqlı olur, söhbət bu cür məsuliyyət səviyyəsində aparılırsa"-Solovyov deyib.

Aparıcı bildirib ki, Bakıya səfər qısamüddətli olub, çünki ABŞ-ın Suriyaya raket zərbələri endirməsi onun proqramını yarımçıq qoyub. Buna baxmayaraq, Solovyov Bakı ilə tanış olmağa imkan tapıb. "Bakının yolları hamardır. Görünür ki, şəhərə böyük pullar qoyublar, çox səliqəlidir. Bakıda bir sıra arxitektura əsərləri var, o cümlədən Zaha Hadidin layihəsi əsasında tikilmiş Heydər Əliyev Mərkəzi"-o deyib.

**Solovyovun bildirdiyinə görə, onu Bakıya səfərə çoxdan hazırlayırdılar.** "Mənim Azərbaycan prezidentindən soruşacaqlarım vardı: başa düşmək istəyirdim ki, sonrası necə olacaq və bütün sualları vermək prinsipial olaraq mühüm idi. Prezidentlə görüş düz saat 10.00-da başladı, o, artıq iş yerində idi və məni təəccübləndirdi ki, İlham Əliyev fotolarda olduğundan xeyli cavan görünür-hündürboy, xoşsifət. Söhbət çox açıq, səmimi oldu və mən prezidentə bu söhbət üçün təşəkkür etmək istəyirəm. O, məndə çox yaxşı təəssürat yaratdı"-rusiyalı teleaparıcı bildirib.

"Mən gördüm ki, İlham Əliyev parlaq təhsilli, ağıllı, şəksiz siyasətçidir, özü də başqa tip siyasətçi-əsl dövlət xadimi. Bizim mövqelərimiz diametral fərqlənirdi, lakin ona minnətdarlıq etməmək mümkün deyil. O, söhbətə olduqca yaxşı hazırlaşmışdı, mənim qaldırdığım bütün mövzuları bilirdi. Biz onunla Belarusda həbs olunmuş blogger barədə, Marat Ueladanov barədə *(Bakıda həbsdə olan Rusiya vətəndaşı, milliyyətcə erməni-red.)* danışdıq. Hər iş üzrə ətraflı bəhs etdik və mən prezidentin mövqeyini dinlədim, öz mövqeyimi ifadə etdim. Mənə deyildi ki, həmin adamlara qarşı olduqca nəzakətli davranılar, ancaq onlar Azərbaycanın qanunlarını pozublar və qanunla cavab verməlidirlər"-Vladimir Solovyov danışıb.

**Aparıcı deyib ki, İlham Əliyevlə söhbət zamanı Rusiya vətəndaşı olan ermeninin Bakıya uçan təyyarəyə buraxılmaması məsələsinə də toxunulub.** "Prezident izah etdi ki, onların bütün ermənilərlə müharibəsi yoxdur, lakin situasiya belədir ki, Azərbaycana gələn hər kəsin təhlükəsizliyini təmin etmək lazımdır. Azərbaycanla Ermənistan arasında çox gərgin, faktiki olaraq partlayış həddində olan vəziyyəti nəzərə alaraq qarantiya haradadır ki, erməni familiyalı adam hotelə gələcək, sənədlərini təqdim edəcək və onu bıçaqlamayacaqlar? Günahkar isə hakimiyyət olacaq. Ona görə də səfərlərin təşkili üçün bütöv təhlükəsizlik sistemi lazımdır"-Solovyov Azərbaycan prezidentinin ona dediklərindən sitat gətirib.

**Rusiyalı teleaparıcının bildirdiyinə görə, İlham Əliyev müxalifətin öhdəsindən necə gəldiyi barədə bəhs edib. Solovyovun danışdığına görə, prezident deyib:** "Mən, sadəcə olaraq, xarici xadimlərin çıxışlarına və xaricdən maliyyə axınına nəzarət etdim, müxalifət isə nəticədə öz-özünə zəiflədi".

Solovyov deyib ki, Azərbaycan prezidentinin QHT-lərə dair illüziyası yoxdur.

**Söhbət zamanı İlham Əliyev birinci xanım Mehriban Əliyevanın nəyə görə vitse-prezident təyin edildiyi haqda da danışıb.** "O dedi ki, bir tərəfdən bu, status-kvonun möhkəmləndirilməsi idi, çünki Mehriban Əliyeva ölkə üçün çox işlər görüb və görür. Habelə məqsəd bu idi ki, bizim onlar kimi olmadığımızı göstərək"-Solovyov sitat gətirib. Onun sözlərinə görə, İlham Əliyevin siyasi islama münasibəti çox sərtdir, bunu heç yaxına da buraxmır.

**Solovyovun danışdıqlarından:** "Azərbaycan prezidenti üçün Qarabağın kimə məxsus olması məsələsi prinsipial olaraq qoyula bilməz, onun bu barədə hər hansı başqa mövqeyi istisnadır. O, Azərbaycanın beynəlxalq arenada hərəkətlərini izah etdi, dedi ki, nə qədər Dağlıq Qarabağ problemi var, Bakı ərazi bütövlüyü prinsipinə qarşı səs verə bilməz. Ona görə də o cümlədən Ukraynanın ərazi bütövlüyünə səs verir. Sonra söhbət işğal edilmiş regionlardan düşdü. Bu barədə mənim mövqeyim aydındır-hərbi həllin yolverilməzliyi. İlham Əliyev isə dedi ki, Azərbaycan bu gün hərbi planda istənilən vəzifəni icra edə bilər və Qarabağda nə baş verdiyini görür. Mən başa düşdüm ki, o, münaqişənin həllində heç yana tələsmir, düşüncə kateqoriyası 10-20 ili əhatə edir və nə qədər lazımsa o qədər gözləyəcək. Çünki məsələ mürəkkəbdir, ancaq həll olunmalıdır".

**Solovyov qeyd edib ki, söhbət zamanı Rusiya ilə Azərbaycan arasında partnyorluq münasibətlərindən də danışılıb.** "Mən dedim ki, Rusiya Azərbaycanı heç vaxt satmaz, o etiraz etdi, dedi ki, "Putin heç vaxt satmaz". Və mənim etiraz etməyə sözüm yoxdur"-aparıcı bildirib.

Ümumiyyətlə, Solovyov İlham Əliyevlə söhbətin çox maraqlı keçdiyini deyib. Qeyd edib ki, Azərbaycan prezidenti gözəl ailə başçısıdır, yaraşıqlıdır, ağıllıdır, çox dərin təhsilə malikdir və ölkəsi qarşısında böyük məsuliyyət hiss edən dövlət xadimidir.

# "Bu səfərin ən başlıca tərəfi var ki, biz onu bilmirik"



## Sabiq təhlükəsizlik zabiti Rusiya Təhlükəsizlik Şurası katibini həssas dönəmdə paytaxtımıza gətirən səbəblərdən danışdı

**Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri kifayət qədər diqqət çəkib. Rusiya metrosundakı terror aktından sonra bölgədəki təhlükəsizlik məsələlərinin ciddi müzakirəsi anlaşılan olsa da, Suriya ətrafında baş verənlər fonunda bu qəfil səfərə münasibət birmənalı deyil.**




Hesab olunur ki, Moskva Vaşinqtonla münasibətlərinin gərginləşdiyi halında Bakını da öz yanında görmək istəyə bilər. Ancaq şübhəsiz ki, Rusiyanın belə bir istəyi olsa belə, Azərbaycan bunun nə qədər riskli olduğunu çox yaxşı bilir. Azərbaycan hətta Türkiyə-Rusiya arasındakı təyyarə gərginliyi dövründə də təmkinli siyasət yürütməklə kritik durumdan problemsiz çıxdı, sonda tərəflər Azərbaycan rəhbərliyinə barışçı siyasətinə görə təşəkkür də etdilər. Bir müddət əvvəl isə Azərbaycan paytaxtı Rusiya və ABŞ ordu generallarının görüş yerinə çevrilmişdi. Bu mənada rəsmi Bakının neytrallığı onun daha çox faydasınadır.

**Sabiq milli təhlükəsizlik xidməti zabiti İlham İsmayıl "Yeni Müsavat"a açıqlamasında kifayət qədər maraqlı məqamlara toxundu:** "Aydın məsələdir ki, təhlükəsizlik katibi təhlükəsizlik məsələləri ilə bağlı danışıqlar aparmağa gəlib. Sankt-Peterburq metrosundakı terrordan sonra Rusiya dövlət başçısının MDB ölkələrinin təhlükəsizlik orqanlarının rəhbərləri ilə Moskvada keçirdiyi müşavirə də göstərdi ki, şimal qonşumuz terror təhlükəsinin miqyasının böyüməsindən xüsusi ehtiyat edir və bu istiqamətdə postsovet ölkələrlə, o cümlədən Azərbaycanla qarşılıqlı əməkdaşlıq, birgə mübarizə tədbirləri görmək niyyətindədirlər".

**İ.İsmayılın sözlərinə görə, bu, səfərin ilk görünən tərəfi olsa da, başqa məqamların da müzakirə predmeti olması tamamilə mümkündür:** "Nəzərə alsaq ki, ötən ilin sonunda və bu ilin əvvəlində Rusiya Federasiyası rəsmi nümayəndə heyətlərinin Azərbaycana gəlişi əsasən Xəzərin statusu ilə bağlı olub. İstər XİN rəsmiləri, istərsə də dövlət başçısı ilə görüşlərin əsas mövzusu Xəzərin hüquqi statusu ilə bağlı olub. Bilirsiniz ki, Xəzərin statusunun müəyyənləşməsi Suriya hadisələri ilə əlaqədar 2 ildir ki, təxirə salınır. Danışıqlardan məlumdur ki, bu il Xəzərin statusunu müəyyənləşdirən beynəlxalq konvensiya keçirilməsi gözlənilir. Xəzərin bölünməsində mübahisəli tərəflər çoxdur və yekun rəyə hələ ki gəlinməyib. Nəzərə alsaq ki, Xəzərin strateji-geopolitik əhəmiyyəti ilə yanaşı, enerji resurslarının hələ çox olması və onun gələcək istismarı Xəzəryanı dövlətlər, xüsusilə bizim üçün böyük əhəmiyyətə malikdir, Rusiyanın narahatlığı başadüşüləndir. Azərbaycanı indiki status qane etsə də, İran, Rusiya və hətta Türkmənistan da narazılıqlarını bildiriblər".

**Ekspertin fikrincə, ola bilsin ki, Patruşevin səfəri bu məsələdə bizi hansısa güzəştlərə razı salmaq üçün həyata keçirilib. İ.İsmayıl hesab edir ki, Suriya aviabazasını ABŞ-ın raket atəşinə tutması Rusiyanın, V.Putinin imicinə böyük zərbə vurub:** "Yadınızdadırsa, 2015-ci ilin sonlarında Rusiya Xəzərdən, Lənkərana yaxın yerdən hərbi gəmilərdən Suriya ərazisinə raket zərbələri endirib, əzələ nümayiş etdirmişdi. Mümkündür ki, danışıqların predmetindən biri də Rusiyanın bu zərbələri təkrar etməsi və Azərbaycanla bu istiqamətdə müzakirələr aparması olsun. Həmin hərbi gəmilər az qala bir ay Bakı sahilində lövbər salmışdılar. Rusiya tərəfindən Azərbaycanı ABŞ-a qarşı qoymaq kimi bir məcburiyyət yoxdur, çünki Azərbaycan həm daxili, həm xarici siyasətində daha çox Rusiya meyllidir və bu siyasətdən kənara çəkilmə elementləri olmadığından Rusiyanı narahat edən bir proses yoxdur. Patruşev 2015-ci ilin mayında da Bakıya səfər etmişdi və o vaxt bu səfərin Avropa Oyunları ilə əlaqədar təhlükəsizlik tədbirləri həyata keçirmək, o cümlədən oyunlar keçirildiyi müddətdə Qarabağ cəbhəsində Ermənistan tərəfin təxribatlara yol verməsinin qarşısını almaq məqsədilə təşkil olunduğu bildirilmişdi".

**Ekspert xatırladı ki, indi də Qarabağ cəbhəsində gərginlik var:** "Ermənilər qarşıdan 24 aprel qondarma genosid gününü və 8 mayda Şuşanın alınmasının 25 illiyini təntənəli qeyd etməyi planlaşdırır. Ermənilərin rahat şəkildə qələbələrini qeyd etməsi üçün cəbhədə ikinci aprel döyüşlərinə yol verməmək tapşırığı və ya xahişi də danışıqların müzakirə mövzusu ola bilər. Erməni tərəf Rusiyaya uydurma məlumat verə bilər ki, - Rusiya burdakı agentləri vasitəsilə özləri də informasiya ala bilir - Azərbaycan həmin günlərdə hansısa irimiqyaslı əməliyyata hazırlaşır və bunun qarşısı alınsın, əks halda, onlar da sərt cavablar verəcək və s. Təbii, Qarabağ cəbhəsində böyük gərginlik Rusiyaya indiki dönəmdə əlavə başağrısıdır. İŞİD terroru, Şimali Qafqaz istiqamətində terrorçuların Azərbaycanı tranzit ölkə kimi istifadə etməməsi, sərhədlərin qorunmasında əməkdaşlıq və sairə təhlükəsizlik tədbirlərində hansısa irimiqyaslı ... danışıqlarda inandırıcı görünür. Nəhayət, görüşün ən əsas məqsədinə gəldikdə... Bu səfərin ən başlıca tərəfi var ki, biz onu bilmirik və bilməməyimiz də təbiidir".

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 75 (6689) 12 aprel 2017

**"Mənə bu yaxınlarda məruzə edildi ki, üç ay ərzində "ASAN viza" xətti ilə 40 min viza verilib. Bu sistem Azərbaycana viza ilə gələnlərə şamil olunur. Səksəndən çox ölkənin vətəndaşı elektron viza alır". AZƏRTAC-ın məlumatına görə, bunu Azərbaycan prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirib.**

# Turizmdə sıçrayış - üç ayda Azərbaycana 544 min xarici turist gəlib

## Ekspertlər hesab edir ki, müvafiq hökumət qurumları turizmin inkişafı üçün daha da effektli tədbirlər planı hazırlamalıdır

**Prezident deyib ki, bunlar olmasaydı, turizm inkişaf edə bilməzdi:** "Əlbəttə, bizim tariximiz, tarixi abidələrimiz, gözəl iqlimimiz, xalqımızın qonaqpərvərliyi, zəngin mətbəxi də bu işdə rol oynayır. Ancaq bunlar hamısı var idi. Bəs, niyə turizm inkişaf etmirdi? Mənim yadımdadır, dəfələrlə müxtəlif dövlət qurumlarına göstəriş vermişdim ki, bu viza məsələlərini həll edin. Çünki vizalarla bağlı pozuntular bizim imicimizə zərbə vururdu. Xarici vətəndaş o vizanı səfirlikdən almaq üçün min əziyyətə qatlaşmalı olurdu, onu get-gələ salırdılar, qanunsuz tələblər irəli sürürdülər. Bu məsələ birdəfəlik həll olundu. İndi bu, olmasaydı Azərbaycana kim gələrdi? Bəzi xarici ölkələrdə olarkən görüşlər əsnasında mənə deyirdilər ki, biz Azərbaycana gəlmək istəyirik, bizim vətəndaşlar gəlmək istəyirlər, amma çox çətindir. Gərək bir həftə, iki həftə əvvəl planlaşdırasan, bilinmir hələ sənə viza verəcəklər, ya verməyəcəklər, bizim konsulumuz olan başqa şəhərə getməlisən. Xarici vətəndaş min bir əziyyətdən çıxırdı ki, Azərbaycana gəlsin. Mən bu məsələni tam diqqətə götürdüm və dərhal inqilabi dönüşlər yarandı. Ona görə turistlərin axınının əsas səbəbləri, bax, budur - bizim siyasətimiz, verdiyim göstərişlər, onların icrası, viza və təhlükəsizlik məsələləri, müasir infrastruktur, hotellər, istirahət zonaları və əlbəttə ki, Bakının gözəlliyi".

Prezidentin bu açıqlamalarından belə görünür ki, burada daha çox onun strategiyası və atdığı addımlar rol oynayıb. Ekspertlər hesab edir ki, turizmin daha da çiçəklənməsi üçün müvafiq hökumət qurumlarının, turizm obyektlərinin də işində ciddi fəallaşmalarına ehtiyac var. Turizmin getdikcə inkişafı Azərbaycanın maliyyə imkanlarına ciddi qatqı ola bilər.

Qeyd edək ki, statistik rəqəmlər də son zamanlar ölkəmizə xaricdən turist axınının artdığını deyir. Aprelin 7-də "JW Marriot Absheron" hotelində "Azərbaycan-Avstriya Turizm Proqramı" Azərbaycanda ilk ikili diplom proqramı təcrübəsi: nailiyyətlər və perspektivlər" mövzusunda keçirilən, "Azərbaycan-Avstriya Turizm Proqramı"nın 10 illik yubileyinə həsr olunan konfransda mətbuata açıqlama verən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bu il ölkəmizə gələn turistlərin sayında artım olduğunu diqqətə çatdırıb. Nazir deyib ki, 2016-cı ilin ilk üç ayı ilə müqayisədə bu ilin analoji dövründə ölkəmizə gələn xarici turistlərin sayında 24,9 faiz artım olub. Belə ki, 2017-ci ilin ilk üç ayı ərzində Azərbaycana 544 min xarici turist gəlib. Təkcə Novruz bayramı ərəfəsində İrandan ölkəmizə gələn turistlərin sayı 65 min nəfərə yaxın olub. 2016-cı ildə Azərbaycana gələn xarici turistlərin statistikası da ciddi irəliləyişdən xəbər verir. Ölkəmizdə reallaşan beynəlxalq mədəni tədbirlər də turizmin inkişafına müəyyən töhfələr verir.



**Nazir ölkəmizin turizm sənayesi üçün yüksəkixtisaslı kadrların hazırlanması istiqamətində həyata keçirilən layihələrdən danışarkən də bu sahədə işlərin getdiyini bildirib:** "Azərbaycanın turizm təhsili müəssisələri dünyanın bu sahədə ən qabaqcıl təhsil sisteminə uyğun olaraq öz fəaliyyətini davam etdirir. İndi Azərbaycanda turizm təhsili sahəsində Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində Azərbaycan Turizm və Menecment Universiteti, Bakı Turizm Peşə Məktəbi və Mingəçevir Turizm Kolleci fəaliyyət göstərir. Yaxın vaxtlarda Qusar və Masallı rayonlarında yeni turizm peşə məktəbləri fəaliyyətə başlayacaq. Ümumilikdə isə 15 belə məktəbin yaradılması nəzərdə tutulur.

Turizm obyektləri ilə yanaşı, xidmət sektoru, turizm üzrə mütəxəssislərin hazırlanması və həmin müəssisələrdə işlə təminat da əsas məqamlardandır. Bu baxımdan, Azərbaycan Turizm və Menecment Universiteti, Mingəçevir Turizm Kolleci, eləcə də Bakı Turizm Peşə Məktəbi kadr hazırlığında özünü doğruldur. 2017-ci ildə Mədəniyyət və Turizm Nazirliyi üçün əsas prioritet məsələ "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə qarşıya qoyulmuş hədəflərə çatmaqdan ibarətdir. Bu böyük və məsuliyyətli işin öhdəsindən gəlmək üçün bütün qüvvəmizi səfərbər etmişik".

❑ **Etibar SEYİDAĞA**

# Süni qiymət artımını yaradan kimlərdir?



## Vüqar Bayramov: "Qiymətlərin tənzimlənməsi üçün kompleks tədbirlərin həyata keçirilməsinə ehtiyac var"

**Manatın dollara qarşı möhkəmlənməsi bazarlarda və marketlərdə ərzaq məhsullarının ucuzlaşacağı düşüncəsini yaratsa da, bunun əksi baş verir. Qiymətlər ucuzlaşmaq əvəzinə, artan tendensiya ilə davam edir ki, bunu da süni qiymət artımı adlandırmaq olar.**

Aprelin 10-da prezident İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında çıxışı zamanı bildirib ki, süni qiymət artımına yol verilməməli və makroiqtisadi sabitlik qorunub saxlanılmalıdır.

Bundan sonra İqtisadiyyat Nazirliyi marketlərdə reydlərə başlayıb. Qeyd edək ki, bahalaşma yalnız marketlərdə ərzaq məhsullarında deyil, eyni zamanda bazarlarda da müşahidə edilir. Kənd təsərrüfatı məhsullarının qiyməti Novruz bayramı ərəfəsində artsa da, sonrakı dövrdə iqtisadçıların proqnozlaşdırdığı kimi stabil qalmadı. Azərbaycanda 2017-ci ilin yanvar-mart aylarında 2016-cı ilin eyni dövrünə nisbətən kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri 10,0 faiz, o cümlədən bitkiçilik məhsullarının istehsalçı qiymətləri 8,6 faiz, heyvandarlıq məhsullarının istehsalçı qiymətləri isə 11,8 faiz artıb. Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, 2017-ci ilin mart ayında fevral ayına nisbətən kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri 1,3 faiz, o cümlədən heyvandarlıq məhsullarının istehsalçı qiymətləri 3,2 faiz artıb, bitkiçilik məhsullarının istehsalçı qiymətləri 0,6 faiz azalıb. Ay ərzində bitkiçilik məhsullarından arpa, buğda, alma və fındığın istehsalçı qiymətində azalma, şabalıd, qoz, nar, lobya dəni, balqabaq və baş sarımsağın qiymətində isə artım müşahidə olunub. Digər bitkiçilik məhsullarının istehsalçı qiymətlərində ciddi dəyişikliklər baş verməyib. Mart ayında heyvandarlıq məhsullarından süd, mal, qoyun və quş ətinin istehsalçı qiyməti artıb. Digər heyvandarlıq məhsullarının istehsalçı qiymətlərində ciddi dəyişikliklər baş verməyib.



Baş çəkdiyimiz bir neçə marketdə hər bir ərzağın qiymətində artım olduğunu müşahidə etdik. Xüsusən də meyvələrin qiymətində ciddi dəyişiklik vardı. Belə ki, əvvəl 2 manata, 1 manat 80 qəpiyə satılan mandarin indi 3-4 manata, portağal 2 manat 50 qəpiyə, almaq 2-4 manata arası, kivi 2 manat 50 qəpiyə satılırdı. Badımcanın qiymətində isə nisbətən ucuzlaşma vardı. Belə ki, əvvəl 4-6 manat arası satılan badımcan indi 2 manat 60 qəpiyə, 3 manata satılırdı. Digər kənd təsərrüfatı məhsullarında da 20 qəpik - 1 manat arası bahalaşma vardı. Satıcılardan bunun səbəbini soruşduqda onlar bahalaşmanı əsaslandıracaq hansısa bir arqument göstərə bilmədilər.

**İqtisadçı ekspert Vüqar Bayramov hazırda baş verən artımın süni qiymət artımı olduğunu bildirdi:** "Manatın möhkəmlənməsindən sonra istehlak bazarında qiymət azalmalarının olması qaçılmaz olmalı idi. Çünki əvvəlki dövrlərdə qiymət artımlarını sahibkarlar manatın məzənnəsinin aşağı düşməsi ilə əlaqələndirirdilər. Dolların bahalaşması səbəbindən qiymət artımının qaçılmaz olduğunu bildirirdilər. Amma artıq manat müəyyən müddətdir ki, stabildir. Manat stabil olduğu üçün bu birmənalı şəkildə istehlak bazarına təsir göstərməlidir və istehlak bazarında qiymətlərin aşağı düşməsi forması tətbiq olunmalıdır. Ancaq çox təəssüf ki, biz bunu müşahidə etmirik. Bəzi məhsullarda nəinki qiymət azalmaları, hətta qiymət artımları belə müşahidə edilir. Məsələn, dünya bazarında son aylar bananın qiyməti 6,7 faiz artıb, amma Azərbaycanın istehlak bazarında bananın qiyməti 2 dəfədən çox artıb. Bu arada manatın məzənnəsi də dollara nisbətən hiss ediləcək dərəcədə möhkəmlənib. Buna görə də əslində qiymət azalmaları baş verməməli idi. Hazırda bunlar süni şəkildə qiymət artımlarıdır. Bunun qarşısının alınması vacibdir. Sözsüz, qiymət artımında rəqabətin zəif olduğunu da qeyd etməliyik. Adətən rəqabətli bazarlarda iqtisadi əsas olmadan süni qiymət artımları müşahidə edilmir. Ona görə düşünürəm ki, süni qiymət artımlarına qarşı mübarizə həm inzibati, həm də bazarın liberallaşması kimi təşviqedici tənzimləmələrlə aparılmalıdır".

**İqtisadçı ekspert qiymətlərin tənzimlənməsi üçün kompleks tədbirlərin həyata keçirilməsinə ehtiyac olduğunu dedi:** "Elə bazarlar var ki, həmin bazarlara fermerlərin çıxış imkanları məhduddur və həmin bazarlarda olan sahibkarlar, alverçilər bəzi hallarda razılaşdırılmış qiymət artımlarına gedirlər. Ona görə də həmin bazarlara fermerlərin daxil olmasında süni baryerlərin aradan qaldırılmasına ehtiyac var. Süni baryerlər aradan qalxmalıdır ki, fermerlər sərbəst şəkildə bazara çıxış imkanları əldə edə bilsin. Eyni zamanda çox vacib məqamlardan biri odur ki, İqtisadiyyat Nazirliyi qiymətlərin monitorinqlərini aparmalı və süni qiymət artımına qarşı mübarizə səlahiyyətindən faydalanıb hansı məhsulda süni qiymət artımının baş verdiyini müəyyənləşdirməyə çalışmalıdır. Vacib məqamlardan biri rəqabətdir. Rəqabətin gücləndirilməsinə ehtiyac var. Həm idxalla, həm də bazarda sahibkarlığa məşğul olan sahibkarların sayının artırılması yolu ilə rəqabətin gücləndirilməsinə ehtiyac var. Rəqabət sahibkarları qiymətləri aşağı salmağa və tənzimləməyə məcbur edəcək. Ona görə də düşünürəm ki, qiymətlərin tənzimlənməsi üçün kompleks tədbirlərin həyata keçirilməsinə ehtiyac var. Biz bu gün manatın möhkəmlənməsi fonunda valyuta bazarındakı stabilliyin istehlak bazarına təsirlərini müşahidə etmirik".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 75 (6689) 12 aprel 2017



# “Qarabağ konfliktinin həlli BMT nəzarətinə qaytarılmalıdır”

## Avropa Parlamentinin sabiq prezidenti Martin Şultsdan ilginc təklif; münaqişənin yoluna qoyulması üçün yeni və daha effektli formatın tapılmasının zamanı çoxdan çatıb; Minsk Qrupu tarixin arxivinə nə vaxt veriləcək?..

**Cəmi 1 aydan sonra atəşkəs haqda Bişkek protokolunun imzalanmasının 23 ili tamamlanacaq. Dağlıq Qarabağ probleminin dinc yolla həllinə cavabdeh olan, BMT-nin mandat verdiyi ATƏT-in Minsk Qrupunun həmsədrləri isə budəfəki ildönümü də “boş əllə” qarşılayacaq.**



Beləcə, bir daha əminliklə qeyd edəmək olar ki, Minsk Qrupu, daha doğrusu, onun üç həmsədr ölkəsi 23 ildə problemin öhdəsindən gələ bilməyibsə, bundan sonra da gələ bilməyəcək. Başqa sözlə, nə qədər deyilsə də ki, bu format çərçivəsində sülh danışıqlarının potensialı hələ tükənməyib, acı gerçək belədir ki, Minsk Qrupu artıq özünü tükədib və ondan effektli vasitəçilik gözləməyə dəymir.

Odur ki, məntiqli sual ortaya çıxır: bəs bundan sonra nə olacaq, alternativ qismində hansı format və ya həll platforması gerçəkləşə bilər? Bəlkə BMT Minsk Qrupuna verdiyi mandatı geri alsın?

*****

**Bu xüsusda Avropa Parlamentinin sabiq prezidenti və alman sosial-demokratların lideri, qarşıdakı Bundestaq seçkilərində indiki kansler Angela Merkelin əsas rəqibi sayılan Martin Şultsun “Vestnik Kavkaza” nəşrinə verdiyi açıqlama diqqət çəkir. Musavat.com-un məlumatına görə, alman siyasətçi postsovet məkanındakı konfliktlərin həllindən danışarkən deyib:** “Avropa siyasəti sahəsində təcrübəm əsasında deyə bilərəm ki, bütün beynəlxalq siyasətin təməl elementi - ortaq maraqların axtarışıdır. Əgər ümumi maraqları dəqiqləşdirməyə və bu maraqları münaqişələrdən və ziddiyyətlərdən güclü etməyə nail olunursa, o zaman bir qayda olaraq, həmin münaqişələrin həlli yolunda ilk mühüm diplomatik addımın atılması gerçəkləşir. Bu mənada biz postsovet məkanında tərəfdaşlarımızla ortaq maraqları o dərəcədə müəyyənləşdirməli və dərinləşdirməliyik ki, əldə olunacaq qazanclar konfliktlərin səbəblərini üstələsin”.

Siyasətçinin sözlərinə görə, Almaniyanın keçmiş xarici işlər naziri Frank-Valter Ştaynmayer (hazırda Almaniya prezidentidir - red.) və onu həmin postda əvəzləmiş Ziqmar Qabriel öz siyasətində konfliktləri önləməyin məhz bu strategiyasını nümayiş etdiriblər və etdirirlər. Postsovet məkanında həll olunmamış konfliktlərdən danışan Martin Şults onların həlli üçün ümum-Avropa maraqlarının olmasını qeyd edib.

“Mən hesab edirəm ki, alman xarici siyasəti Avropa Birliyinin siyasəti çərçivəsində böhranların önlənməsinə, inkişaf sahəsində daha sıx əməkdaşlığa və beynəlxalq institutların gücləndirilməsinə stavka etməlidir. Bu xüsusda bizim prinsipimiz ondan ibarətdir ki, bütün beynəlxalq konfliktlər BMT rəhbərliyinə qaytarılmalıdır”, - deyə alman siyasətçi vurğulayıb.

Qeyd edək ki, Martin Şultsun son fikri böyük ölçüdə Azərbaycanın Dağlıq Qarabağ məsələsində maraqları ilə üst-üstə düşür. Nədən ki, Qarabağ mövzusunun BMT gündəliyinə qayıtması BMT Təhlükəsizlik Şurasının Qarabağa dair 4 məlum qətnaməsinin ermənilər tərəfdən yerinə yetirilməsi məsələsini aktuallaşdıracaq. Bu isə o deməkdir ki, Ermənistan işğal etdiyi əraziləri, o cümlədən Dağlıq Qarabağı bitişik rayonları azad eləməlidir, köçkünlər beynəlxalq təhlükəsizlik zəmanəti altında ora qayıtmalıdırlar”.

Təcavüzkar Ermənistana isə təbii ki, ona gizli-açıq rəğbət bəsləyən və işğal faktını dəmək olar, görməzlikdən gələn Minsk Qrupu həmsədrliyinin qalmasında maraqlıdır. Lakin ötən 23 illik zaman kəsiyi göstərdi ki, indiki vasitəçilər üçlüyü problemin həllində irəliləyişə nail olmaq üçün ortaq potensiala malik deyillər. Bu minvalla Dağlıq Qarabağ münaqişəsinin həlli Fələstin-İsrail problemi kimi on illərlə uzana bilər. Belə olmaması üçün isə tək çıxış yolu - öncəliklə həmsədr dövlətlərin işğalçını öz adı ilə çağırması və Azərbaycanın ərazi bütövlüyünün qeyd-şərtsiz tanınmasıdır.

Bu yöndə siyasi müşahidəçilərin fikirləri də maraq kəsb edir.

**Yada salaq ki, bir il öncə - 2016-cı il aprelin 12-də Martin Şults (o vaxt Avroparlamentin prezidenti idi) aprel əməliyyatlarından danışarkən bəyan eləmişdi ki, Ermənistan Dağlıq Qarabağ və ona bitişik 7 rayon daxil, bütün işğal elədiyi Azərbaycan ərazilərini qaytarmalıdır. Sitat:** “Baş verənlər təəssüf ki, status-kvonun saxlanmasının qeyri-məqbul olduğunu sübut edir. Bu, hərbi əməliyyatların bərpası riskini artırır. Ermənistan işğal etdiyi əraziləri, o

*****

**“Dünyanın stabilliyinə və təhlükəsizliyinə təsir edən böyük dövlətlər artıq Azərbaycanın ərazi bütövlüyü məsələsinin aparıcı xətt olduğunu görürlər”. Bu sözləri axar.az-a açıqlamasında Ermənistanın eks-prezidenti Levon Ter-Petrosyanın son çıxışlarına münasibət bildirən deputat Aydın Mirzəzadə deyib. O vurğulayıb ki, beynəlxalq ictimaiyyət Ermənistanın işğalçılıq siyasətinə “yox” deməsə, sabah bu proses dünyanın digər regionlarında da təkrarlana bilər.**

“Ermənistanda ilk dəfədir ki, siyasi qüvvələr işğal edilmiş Azərbaycan torpaqlarının qaytarılması məsələsini çox açıq şəkildə qoyurlar. Bu fikri ortaya atan təsadüfi adam deyil, o, vaxtilə işğala birbaşa rəhbərlik etmiş Levon Ter-Petrosyandır. İşğal Ermənistana ağır zərbələr vurub, ona görə də Petrosyan bu gün yeddi rayonun qaytarılmasını ciddi şəkildə müzakirə edir”, - deyə Mirzəzadə qeyd edib.

**Dağlıq Qarabağ münaqişəsinin Ermənistanda doğurduğu ağır nəticələri qeyd edən deputat Ermənistanın siyasi durumunun çox ağır olduğunu da bildirib:** “Ermənistan iqtisadi baxımdan Azərbaycanın təşəbbüskarı olduğu mühüm layihələrdən kənarda qalıb. Düzdür, beynəlxalq təşkilatlar Ermənistana qarşı yumşaq davranırlar, ancaq Azərbaycanın ərazi bütövlüyü uğrunda aparıcı siyasət yürüdülür. Dünyada dəyişən siyasi ab-hava artıq bu tip məsələlərə qəti mövqe tələb edir. Əslində Ter-Petrosyan beynəlxalq təşkilatların Ermənistana qarşı sanksiyalar tətbiq edəcəyini düşünür. O haqlıdır. Çünki dünyanın stabilliyinə və təhlükəsizliyinə təsir edən böyük dövlətlər Azərbaycanın ərazi bütövlüyü məsələsinin aparıcı xətt olduğunu görürlər. İrəvan işğalçılıq siyasətinə davam etdikcə Ermənistan çox ciddi şəkildə beynəlxalq təşkilatların sanksiyaları ilə üzləşə bilər”.

Yada salaq ki, az öncə Levon Ter-Petrosyan yerli İctimai Televiziyasına müsahibəsində Dağlıq Qarabağ ətrafındakı 7 rayonun tezliklə azad edilməyəcəyi təqdirdə beynəlxalq aləmin sanksiyalarla Ermənistanı buna məcbur edəcəyini söyləyib.



# Nazir yeni qorxunc silahın anonsunu verdi - “Zərbə KH”

**Müdafiə Sənayesi Nazirliyi “Zərbə KH” (kumulyativ başlıqlı) pilotsuz uçuş aparatının (PUA) yaradılması istiqamətində işlərə başlayıb. Bu barədə müdafiə sənayesi naziri Yavər Camalov bəyan edib.**

“Hazırda düşmənin canlı qüvvəsini, hərbi texnikasını və hərbi obyektlərini 100 kilometr məsafədə tam müəyyən edən və məhv etmək iqtidarında olan "Zərbə KH" (kumulyativ başlıqlı) pilotsuz uçuş aparatının yaradılması istiqamətində intensiv işlərə başlanılıb", - deyə nazir Azərbaycan prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirib.

Y.Camalovun sözlərinə görə, yüksək güclü elektromaqnit impuls şüalanma layihəsi işlərinə başlanılıb. “Bu layihə iki istiqamətdə - zirehli texnika üzərində yerləşdirilmiş elektromaqnit impuls qurğusunun və yüksək impulslu elektromaqnit şüa verən aviasiya bombasının yaradılması istiqamətində aparılacaq”, - deyə o qeyd edib.

Nazir onu da vurğulayıb ki, məmulatların əsas təyinatı istiqamətlənmiş elektromaqnit şüalanma yaratmaqla, hədəfdə olan müxtəlif hərbi və mülki təyinatlı texnikaların idarəetmə elektron sistemlərini sıradan çıxarmaqdır. “Artıq bu layihələr üzrə intensiv və təxirəsalınmaz işlərə başlanılıb” - nazr əlavə edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 74 (6689) 12 aprel 2017

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən Azərbaycan vətəndaşlarının dini radikal silahlı birləşmələrə və ölkə hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb edilmələrinə qarşı kompleks mübarizə tədbirləri davam etdirilir.**



# Ter-Petrosyan ermənilərə "qul" dedi

## Qabil Hüseynli: "Dediklərinin xalqı sevdiyindən irəli gəldiyi qənaətindəyəm"

Ermənistanın birinci prezidenti, "Erməni Milli Konqresi" partiyasının lideri Levon Ter-Petrosyanın Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ilə bağlı növbəti açıqlamalar verib. Ter-Petrosyan 2 aprel seçkilərinin nəticələri barədə yazdığı məqalədə Qarabağ məsələsinin bir daha üstünə qayıdıb. Seçicilərin seçkilərdə pulla ələ alındığını qeyd edərək, erməni xalqını "qul" adlandıran sabiq ölkə rəhbəri Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində hazırda danışıqlar masası üzərində olan həll variantında yaxşısının olmayacağını vurğulayıb.

**Ter-Petrosyanı həm də o narahat edir ki, erməni KİV-ində və sosial şəbəkələrdə bəziləri Ermənistan və Dağlıq Qarabağın separatçı rejimi arasına pazlar vurmağa çalışırlar:** "Bu, Ermənistan və Dağlıq Qarabağ erməniləri arasında düşmənçiliyin qızışdırılmasına yönəldilib. Bu, qəbuledilməzdir. Məhrumiyyətlər, hansılara ki, ermənilər Qarabağdakı müharibəyə görə dözürdülər, qarabağlıların qınanılması üçün əsas deyil".

**Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli hesab edir ki, Ter-Petrosyan hakimiyyətdən getdikdən sonra daha çox müdrikləşib:** "Bölgədəki siyasi prosesləri, dünyanın aparıcı dövlətlərinin yürütdüyü siyasəti, xüsusilə yaxın qonşular arasındakı münasibətləri dərindən öyrənib. Onsuz da o hakimiyyətdə qalsaydı, Dağlıq Qarabağ münaqişəsinin həllinin bir variantı tapılacaqdı. O yolun böyük bir hissəsini də təklif etmişdi. Məhz hakimiyyətdən gedişinə də bu səbəb olmuşdu. Düzdür, Petrosyan münaqişənin həllində Dağlıq Qarabağın qeyri-şərtsiz Azərbaycanın tərkibində qalmasını istəmir. O, sadəcə, Dağlıq Qarabağda olan ermənilərin öz müqəddəratlarını təyin etmək hüquqlarına malik olduqlarını və münaqişənin də həllinin bu istiqamətdə aparılmasını təklif edir. Petrosyanın əsas üstünlüklərindən biri odur ki, Azərbaycanla yeni müharibəyə heç zaman getmək olmaz, işğal edilmiş ərazilər, yəni Dağlıq Qarabağdan kənarda olan ərazilər dərhal Azərbaycana qaytarılmalıdır, Azərbaycanla yaxın əlaqələrin yaradılması üçün maksimum səy göstərilməlidir, Ermənistan Rusiya ilə əlaqələrini bu



şəkildə qurmamalıdır. Qərbyönlü siyasət yürüdülməsini də Ermənistanın xarici siyasətinin əsaslarından biri kimi təqdim edir".

**Politoloq erməni müxalifətinin liderinin nədən belə açıqlamalar verdiyinə də aydınlıq gətirdi:** "Petrosyan niyə belə hərəkət edir? Düşünürəm ki, o, xalqına sevgisindən bunu bəyan edir. Çünki xalqının torpaq işğal etməsinin nə ilə nəticələndiyini yaxşı görür. Bunların hamısını göz önünə gətirən Petrosyan hesab edirəm ki, vətənpərvər kimi çıxış edir. Onun vətənpərvərliyini sübut edən amillərdən biri odur ki, Petrosyan erməni xalqının inkişafını müharibələrdə deyil, elmdə, mədəniyyətin inkişafında, dünyaya inteqrasiyada görür. O, əqlinə, zəkasına görə bəşəri dəyərlər üstündə tərbiyə edilmiş şəxs təsiri bağışlayır. O, Serj Sərkisyan kimi səhra komandiri olmayıb, Robert Köçəryan kimi oğurluq, quldurluqla məşğul olmayıb. Gözəl bir ailədə tərbiyə alıb. Düzdür, Azərbaycan torpaqları onun hakimiyyəti dövründə işğal edilib. Amma bu onun naşı dövrünə təsadüf edirdi. Sonradan naşılığını anladı və danışıqlar prosesində loyal mövqe sərgilədi. Bu səbəbdən də vəzifəsindən uzaqlaşdırıldı. Amma indi Petrosyan münaqişənin həllində daha humanist mövqe tutmağa başlayıb. Çalışır ki, hər iki xalq ömrü boyu düşmənçilik edən xalqa çevrilməsin. Petrosyan sülh istəyir, yaxın qonşuluq əlaqələrinin qurulmasını vacib sayır. O, erməni xalqı barədə nə qədər tənqidi fikirlər səsləndirsə də, dediklərinin xalqı sevdiyindən irəli gəldiyi qənaətindəyəm. O, xalqını manqurt, millətçi kimi görmək deyil, dünyanın inkişaf etmiş qabaqcıl xalqları sırasında görmək istəyir. Xalqının digər xalqlara nifrət etməsinin təhlükəli olduğunu yaxşı görür. O, təkcə müasir tipli siyasətçi deyil, həm də ziyalıdır".

❑ **Cavanşir ABBASLI**

# Tramp niyə sürətlə dəyişir? - iki hədəf

## Elxan Şahinoğlu: "Amerikadakı siyasi sistem prezidentə təkbaşına hərəkət etmək imkanı vermir"



**ABŞ-ın yeni dövlət başçısı Donald Trampın siyasətində sürətlə dəyişikliklərin getdiyinin şahidi olmaqdayıq. Onun timsalında bu ilin yanvarındakı inauqurasiya mərasimindən sonra tam fərqli bir şəxsi görməkdəyik. Belə ki, prezident olduğu aylar ərzində onun seçki təbliğatı dövründəki vədləri açıq şəkildə pozduğunu müşahidə edirik.**

Trampın qalibiyyətində mühüm rol oynamış vədlərindən biri - heç bir dövlətin daxili işlərinə qarışmayacağı, amerikalı əsgərlərin başqa bir dövlətin ərazisində mənasız müharibələrdə həyatlarını itirməyəcəyi ilə bağlı idisə, artıq Ağ Evin yeni sahibinin dediklərinin əksinə şahidlik etməkdəyik.

Rusiya ilə münasibətlərdə də Trampın mövqeyində mühüm dəyişikliklər baş verməkdədir. Əksəriyyət onun qalib gələcəyi təqdirdə ABŞ-Rusiya münasibətlərində yumşalma olacağını düşünürdü. Hətta o qələbə çalandan sonra seçkinin nəticələrində Rusiya amilinin əsas rol oynadığı vurğulanırdı.

Lakin Suriyadakı son hadisələr deyilənlərin tam əksini üzə çıxardı. D.Tramp Rusiyanın böyük səylə müdafiə etdiyi Suriya rəhbəri Bəşər Əsədin hərbi bazalarına güclü hava zərbələri endirməklə Kremli "dəfn etdi". Artıq iş o yerə çatıb ki, D.Trampı 2000-2008-ci illərdə ölkəyə rəhbərlik etmiş Corc Buşa bənzədirlər.

D.Trampdakı dəyişikliklərlə bağlı ən müxtəlif mülahizələr var. Amerikanın dövlətçilik siyasəti oturuşmuş bir sistem olduğundan onun bunu dəyişmək iqtidarında olmadığı və bunun üçün də ABŞ-ın ənənəvi siyasətindən kənara çıxa bilmədiyi qeyd olunur. Dünyanın supergücünün "dərin dövlət" deyilən sisteminin burada mühüm rol oynadığı, Trampın siyasətini əvvəlcədən müəyyən etdiyi vurğulanır.

**Politoloq Elxan Şahinoğlu da hesab edir ki, Amerikadakı sistem prezidentə təkbaşına hərəkət etməyə imkan vermir:** "ABŞ-da oturuşmuş siyasi sistem var. Prezident nə qədər güclü olsa da, siyasi sistemin öz oyun qaydaları mövcuddur. Bu baxımdan, Tramp Pentaqon, Mərkəzi Kəşfiyyat İdarəsi, onlarla "beyin mərkəzi" və elə öz müşavirlərinin qeydlərini və hesabatlarını qulaqardına vura bilməz. İki misal göstərmək olar. Tramp seçkidən öncə deyirdi ki, hakimiyyətə gələn kimi keçmiş prezident Barak Obamanın tətbiq etdiyi tibbi sığorta sistemini ortadan qaldıracaq və fərqli sığorta sistemi tətbiq edəcək. Hələ ki bu məsələ Konqresdə ilişib qalıb və irərliləyiş yoxdur. Və ya Tramp seçkidən əvvəl Çinin ünvanına kəskin tənqidlər səsləndirir və Rusiyanı tərifləyirdi. Donald Tramp prezident seçiləndən sonra bunun tam tərsini həyata keçirir, yəni Çinlə yaxınlaşır, bu dövlətin kommunist lideri ilə Amerikada çox məhsuldar ikitərəfli görüş keçirib, Rusiyanı isə kəskin tənqid edir. Trampın "Meksika ilə sərhəddə divar tikəcəm" şüarından da xəbər yoxdur. Bütün bunlar ona görə baş verir ki, Amerikadakı sistem prezidentə təkbaşına hərəkət etmək imkanı vermir. Əslində belə bir sistem Amerikada demokratiyanın və fikir müxtəlifliyinin gücünü göstərir. Yəni sistem bir adama təkbaşına qərar verməyə əngəldir. Həmin qərar bütün oyunçularla razılaşdırılmalıdır. Əks halda, prezident həmin siyasi sistemə məğlub olar".

**Politoloq Rusiyanın Tramp ümidlərinin üstündən xətt çəkildiyini düşünür:** "Rusiya Trampa böyük ümidlər bəsləyirdi. Hətta Kremlə yaxın siyasətçi Vladimir Jirinovski Trampa dəstəyini gizlətmir, o prezident seçiləndə hətta Dövlət Dumasında qonaqlıq vermişdi. Kremlin özü də çalışırdı ki, Amerikada Hillari Klinton prezident seçilməsin, Ağ Ev Trampa qismət olsun. Ancaq indi vəziyyət tam fərqlidir. Kreml Bəşər Əsədə verdiyi dəstəyə görə Trampla körpüləri yandırmaq üzrədir. Tramp Krımın işğalını bəlkə də unutmağa hazır idi, ancaq Suriyada istifadə olunan kimyəvi silah Trampı hövsələdən çıxartdı və o, raketləri Suriya ərazisinə tuşladı. Nəticədə Vaşinqton-Moskva münasibətləri daha da soyudu. Yeganə çıxış yolu Kremlin Suriya siyasətinə dəyişiklik etməsidir. Bu baş verməyincə, iki böyük dövlət arasında yaxınlaşma problematikdir. Donald Trampın ölkə daxilində reytinqi yüksək deyil. Çünki vəd verdiyi islahatları həle sürətləndirə bilmir. Buna baxmayaraq, kimyəvi silahın istifadəsinə görə Amerikanın Əsədin hərbi bazasının bombalaması Trampın reytinqini bir qədər artırıb. Bu raket zərbəsi ilə Tramp iki məqsədinə çatıb. Birincisi, Tramp bununla Kremlə yaxın olmadığını göstərdi. Çünki bu zərbəyə qədər Amerika siyasi elitasında və cəmiyyətində "Tramp Kremlin adamıdır" şayiəsi yayılırdı. Tramp raket zərbəsi ilə bu "imicdən" yaxa qurtardı. İkincisi, Tramp zəif prezident olmadığını və bu mənada keçmiş Ağ Ev sahibi Barak Obamadan fərqləndiyini göstərdi. Obama çox deyirdi ki, Əsəd rejimi xalqına qarşı kimyəvi silahdan istifadə etsə, bu, onun üçün "qırmızı cizgi" olacaq və bu halda o, Dəməşqi cəzalandıracaq. Ancaq Əsəd rejimi kimyəvi silahdan istifadə edərək minlərlə insanın qətlinin baiskarı oldu və Obama vədini yerinə yetirmədi. Tramp isə raket zərbəsi ilə dediyi sözə sahib olduğunu sübut etdi. Suriyaya raket zərbəsi Trampa özünəinamın artırılması baxımından çox lazım idi. Tramp gələcək aylarda da fəal xarici siyasət yürütməyə çalışacaq".

❑ **Cavanşir ABBASLI**

**Aprelin 11-də Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının İnsan Hüquqları XX əsr-Azərbaycan Fondu ilə birgə həyata keçirdiyi "Uşaqlara siqaret satmaq qadağandır!" ümumrespublika kampaniyası çərçivəsində "Yetkinlik yaşına çatmayanların tütün məmulatlarına çatımlılığı: problemlər və həlli yolları" mövzusunda dəyirmi masa olub.**

# 18 yaşadək qadağandır, amma...

## AVCİYA yeniyetmələrə siqaret satılmasına dair monitorinqin nəticələrini açıqladı

Musavat.com-un xəbərinə görə, tədbiri giriş sözü ilə açan AVCİYA-nın vitse-prezidenti Elçin Salmanov tədbir iştirakçılarını assosiasiyanın prezidenti, millət vəkili Elxan Süleymanovun adından salamladıqdan sonra təşkilatın fəaliyyəti ilə bağlı məlumat verdi. Natiq cəmi bir neçə gün əvvəl AVCİYA-nın Qarabağla bağlı hesabatının BMT-nin rəsmi saytında dərc olunduğunu vurğuladı. E.Salmanov daha sonra AVCİYA-nın İnsan Hüquqları XXI əsr Azərbaycan Fondu ilə birgə keçirdiyi kampaniyanın məğzi barəsində danışdı.

İnsan Hüquqları XXI əsr Azərbaycan Fondunun rəhbəri Şahin Camalov fondun "ELS" Araşdırma Mərkəzi ilə birgə Bakı şəhərinin siqaret satılan ticarət obyektlərində tütün məmulatlarının ticarətdə qanunauyğunluğunu müəyyənləşdirmək məqsədilə aparılan monitorinq və rəy sorğusunun nəticələri haqqında danışdı. Qeyd olundu ki, sorğu 2017-ci il mart ayının 9-dan 11-dək Bakı şəhərinin Nizami, Xətai, Səbayel, Yasamal, Binəqədi, Nəsimi rayonlarındakı ticarət obyektlərində "Face to face" metodologiyası ilə keçirilib və sorğunun anonimliyi təmin olunub. Monitorinq nəticəsində müəyyən olunub ki, ticarət obyektlərinin 82,8%-də 18 yaşa çatmayanlara siqaret satışının qadağan olunmasına dair elan yoxdur. Yeniyetmələrə siqaretin satışı ilə bağlı qadağa haqqında satıcıların yalnız 3,4%-nin məlumatı yoxdur, satıcıların 6,9 %-i isə ədədlə siqaret satışının mümkün olduğunu qeyd edib. Satıcıların 96,6 %-i siqaret almaq üçün müraciət edən yeniyetmələrin yaşını gözəyarı müəyyən edir. Ş.Camalov bildirib ki, "Tütün məmulatı haqqında" Azərbaycan Respublikası Qanununda "siqaret, papiros və siqarillaların" ədədlə satışı qadağan olunsa da, monitorinqin əhatə etdiyi bütün obyektlərdə siqaretin ədədlə satılması müəyyən edilib. Rəyi soruşulanlar vergi orqanları, Ticarət və Xidmət Departamenti, Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti, icra hakimiyyəti və digər orqanların siqaret satışına nəzarəti həyata keçirdiyini bildiriblər.





Təhsil Nazirliyinin nümayəndəsi Firudin Həmzəyev belə aktual məsələyə reaksiya göstərdiyinə görə AVCİYA-nın rəhbərliyinə təşəkkürünü bildirib. Nazirliyin nümayəndəsi qanunvericiliklə qadağan olunmasına rəğmən məktəblərin və təhsil müəssisələrinin yaxınlığında tütün məmulatları satan satış obyektlərini böyük problem kimi dəyərləndirib. Natiq bu halların qarşısını almaq üçün aidiyyəti orqanların, qeyri-hökumət təşkilatlarının və ictimaiyyətin yardımının lazım olduğunu vurğulayıb.

Daxili İşlər Nazirliyinin nümayəndəsi Əkbər Əkbərov qeyd etdi ki, müzakirə olunan məsələ ilə bağlı DİN Təhsil Nazirliyi ilə birgə yalnız bu ilin birinci yarısında 325 tədbir keçirib. Yetkinlik yaşına çatmayanlara tütün məhsullarının satılmaması üçün sanksiyaların sərtləşdirildiyi bildirilib və bu məsələdə valideynlərin məsuliyyəti məsələsi önə çəkilib. Natiq xüsusilə yetkinlik yaşına çatmayanlara ədədlə siqaret satılmasını böyük problem kimi səciyyələndirib.

Ticarət və Xidmət Departamentinin nümayəndəsi Salman Məmmədli müzakirə edilən problemlə bağlı təmsil etdiyi qurumun fəaliyyəti barədə danışıb. Natiq tütün məmulatlarının ədədlə satışının qarşısının alınacağı təqdirdə yeniyetmələrin siqaret almaq imkanlarının xeyli məhdudlaşacağına diqqəti yönəldib.

Səhiyyə Nazirliyinin nümayəndəsi Tofiq Musayev bildirdi ki, tütün tüstüsü həm siqaret çəkənlər, həm də çəkməyənlər üçün böyük problemdir. O, yeniyetmələrin 7 %-nin, qadınların 1 %-nin siqaret çəkdiyini qeyd edib, lakin adıçəkilən qrupların 49 %-nin öz evlərində tütün tüstüsünə məruz qaldığını qeyd edib. Nazirlik nümayəndəsi tütün məhsulları üçün aksiz vergisinin qaldırılmasının və ictimai yerlərdə siqaret çəkilməsinin qadağan edilməsinin vacibliyini vurğulayıb.

Müzakirələrə yekun vuran Elçin Salmanov növbəti mərhələdə Cəlilabad, Xaçmaz, Şamaxı, Şəki rayonlarında, Gəncə və Mingəçevir şəhərlərində rayon polis şöbələrinin yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili bölməsinin əməkdaşlarının, rayon təhsil şöbələri və icra hakimiyyəti nümayəndələrinin iştirakı ilə seminarların keçiriləcəyini bildirdi.

❑ **Musavat.com**

# Qadağan olunmuş dini təriqət Bakıda yenidən fəallaşıb

## "Yehova şahidləri" "elektron kitab" saytının reklamı adı ilə insanları necə aldadırlar?











**Bakıda qadağan olunmuş dini təriqətin təbliğatı ilə məşğul olan şəxslər peyda olub. Haqqında danışacağımız dini cərəyanın təbliğatı haqda məlumat yeni olmasa da, onların təbliğat metodu yenidir. Belə ki, paytaxt Bakıda vətəndaşlara yaxınlaşan şəxslər "elektron kitab" saytının reklamı adı ilə insanları üzvü olduqları dini cərəyanın rəsmi portalına dəvət edirlər.**

"Siz bizim bu saytımıza daxil olmaqla istədiyiniz kitabın elektron variantı ilə tanış ola və faydalana bilərsiniz" deyə, dini təriqətin təbliğat şüarında vətəndaşlara məlumat verilir. Bu zaman təbliğatla məşğul olan şəxslər ya saytın adını yazılı şəkildə insanlara təqdim edir, ya da mobil telefon vasitəsilə adıçəkilən portala necə daxil olmağı izah edirlər.

"Elektron kitab" adı ilə təbliğ edilən bu saytda əslində "Yehova şahidləri" adlı dini təriqətin fəaliyyəti haqda bütün məlumatlar yer alır. Haqqında danışdığımız www.jw.org saytında "Yehova şahidləri"nin məqsədi, təşkilatlanması, təşkil etdikləri görüşlər, keçirilən tədbirlər, dini təriqətlə bağlı hazırlanan nəşrlər haqda ətraflı məlumat verilir.

Dini cərəyanın təbliğatını aparan bu şəxslər əsasən gənclərə yaxınlaşaraq onlara mobil telefonları vasitəsilə bu sayta daxil olmağı təklif edirlər və dərhal da oradan uzaqlaşırlar.

Haqqında danışdığımız sayt bir çox dillərdə fəaliyyət göstərir. Azərbaycan dilində də istifadəsi mümkün olan bu saytda dini təriqətin filialları, ekskursiya etdikləri ərazilər də göstərilir.

Amma saytın "filiallar" bölməsinə daxil olduqda Azərbaycanla bağlı hər hansı bir məlumat tapmaq mümkün deyil. "Filiallar" bölməsinə daxil olarkən ilk olaraq ölkə seçimi etmək lazım olur. Bu bölmədə Almaniya, ABŞ, Argentina, İtaliya, Hollandiya, Yaponiya, Ukrayna, Rusiya da daxil olmaqla, 80-dən çox ölkənin adına rast gəlmək mümkündür. Bu ölkələr adıçəkilən dini təriqətin sərbəst şəkildə fəaliyyətinə icazə verən ölkələrdir.

Saytın qeyd etdiyimiz bölməsində yer alan ölkələrdən birinə daxil olmaqla, əlavə məlumat da əldə etmək mümkündür. Bu bölmədə səyahət etmək istədiyiniz ölkədə "Yehova şahidləri" dini cərəyanının nümayəndələri ilə əlaqə saxlamaq mümkündür. Burada telefon nömrələri belə yerləşdirilib. Bu bölmədə ölkələrdən Almaniyaya seçərkən diqqətimizi bir məlumat çəkir.

**"Qısa məlumat" başlığı ilə çatdırılan həmin məlumatda deyilir:**

"İl ərzində 17 milyon kitab və 165 milyon jurnal çap edir. Hər il 40-dan çox ölkəyə 280 dildə ümumilikdə 11 000 ton kitab və jurnal göndərir". Bu rəqəmlər, sadəcə, cərəyanın Almaniyadakı filialına aiddir.

Saytda yerləşdirilən məlumatlardan aydın olur ki, cərəyanın mərkəzi ofisi ABŞ-da yerləşir. Təriqətin ABŞ-da 3 filialı fəaliyyət göstərir. Bu filiallardan biri olan Bruklin filialı cərəyanın ümumdünya fəaliyyətinə rəhbərlik işini həyata keçirir. Digər filial Paterson isə dini təriqətin nəşrlərinin bədii tərtibatı ilə məşğul olur. Həmçinin dini təriqətin təbliğatında istifadə olunan audio və videoyazılar hazırlayır və onu dünyanın bir çox ölkələrinə yola salır.

ABŞ-da yerləşən üçüncü Uolkil filialında isə hər il cərəyanla bağlı 25 milyon ədəbiyyat çap edir. ABŞ, Kanada və Karib dənizi ərazisində 15 000 yığıncaq da daxil olmaqla, bütün dünyaya 360 dildə ədəbiyyat göndərir.

Bildirək ki, Bakı ilə yanaşı, Azərbaycanın bir çox bölgələrində "Yehova şahidləri" dini təriqətinin təbliğatı ilə məşğul olan bir çox şəxslər var. Onlardan bəzilərini hüquq-mühafizə orqanlarının əməkdaşları qanunsuz olaraq fəaliyyət göstərərkən saxlayıb. Bir neçə il əvvələ qədər bu təriqətin üzvləri əsasən qapı-qapı gəzərək müqəddəs saydıqları dinin təbliğatı ilə məşğul olurdular. Onlar insanları dini mərasimlərə dəvət edir, onlara pulsuz nəşrlər hədiyyə edirdilər. Lakin sonradan bu cür təbliğatlar səngidi. Çünki qanunsuz olaraq təbliğatı aparılan bu cərəyanın bir çox üzvləri saxlanıldı.

Sonuncu olaraq aprelin 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və hüquq-mühafizə orqanları tərəfindən Qaradağ rayonu ərazisində yerləşən iki ünvana əməliyyat-baxış tədbiri keçirilərkən "Yehova şahidləri" dini təriqətinin təbliğatı ilə məşğul olan şəxslər saxlanılmışdı.

Lökbatan qəsəbəsində Orucova Solmaz Məmməd qızı və Ağaliyeva Sevil Babaəli qızına məxsus mənzillərdən "Yehova şahidləri" qeyri-ənənəvi dini təriqət üzvlərinin qanunsuz toplantı keçirmələri aşkar edilərək qarşısı alınıb.

İki ünvanda 10-u azyaşlı uşaq olmaqla, ümumilikdə 33 nəfər müəyyən edilib, həmin dini təriqətin təbliğini ehtiva edən çox sayda dini təyinatlı ədəbiyyat aşkar edilərək götürülüb və müvafiq qaydada sənədləşdirilib.

❑ **İ.MURADOV**

# “Tax-free” təcrübəsi dünyada necədir?

## Ekspert: “Bunu tətbiq edənlər bilmirlər ki, “tax free“ nə deməkdir“

**Aprelin 10-dan etibarən “Bakı Şoppinq Festivalı” işə başlayıb. Bir ay davam edəcək festival çərçivəsində oradan alış-veriş edən xarici vətəndaşlarla yanaşı, yerli sakinlər də imtiyazlı əsaslardan faydalana biləcəklər. Belə ki, istənilən malın qiymətinin ƏDV geri qaytarılacaq.**




ƏDV köşkləri “28 Mall”, “Nərgiz Mall”, “Port Baku”, “Park Bulvar”, “Metro Park”, “Gənclik Mall” kimi ticarət mərkəzlərində quraşdırılıb.

Maraqlısı isə odur ki, “Şoppinq festival”ın keçirilmə qaydaları heç də birmənalı qarşılanmayıb. Sosial şəbəkələrdə bir sıra tənqidlər yer alıb.

**Sosial şəbəkə istifadəçilərindən Vahid Qasımov bildirib ki, keçirdiyi kiçik bir araşdırma nəticəsində “Şoppinq festival”ın neqativ tərəflərini də üzə çıxara bilib:** “Məlum olub ki, festivalda ancaq aşağıdakı dükanlarda alış-veriş zamanı ƏDV qaytarılır: ”Albatros", “Celio”, “Corneliani”, “Carlo Pazolini”, “Emporio” “Armani”, “Escada”, “Guess”, “MAC”, “Next”, “Scoop”, “Soliton”, “Tods”, “VİP Aviasiya Xidmətləri”, “İdeal”...

Digər tərəfdən, bu məhsulların ƏDV-si qaytarılmır: aksizli mallar, ərzaq malları, dərmanlar və tibbi ləvazimatları, ƏDV-dən azad edilən mallar, işlənməmiş qiymətli daşlar, külçə şəklində qiymətli metallara, nəqliyyat vasitələri və onların ehtiyat hissələri.

Həmçinin şərtlərdən biri də, alınan malın qiymətinin 100 manatdan artıq olmamasıdır.

ƏDV-nin qaytarılması üçün əvvəlcə dükanda sənəd təqdim edərək E-VHF doldurulmalıdır, sonra xüsusi köşklərdə ona möhür vurulmalıdır, sonra bankda ona əsasən pul alına bilər. Pul nağd ya da köçürülmə ilə ödənilə bilər, köçürülmə 10 gün ərzində həyata keçirilir.

Tənqid olunan bir məqam da odur ki, köçürülmə metodundan asılı olmayaraq geri qaytarılan ƏDV məbləğindən 20 faiz həcmində xidmət haqqı tutulur".

**“Yeni Müsavat”a açıqlamasında “tax-free”nin tətbiq olunması ilə bağlı dünya təcrübəsinə toxunan iqtisadçı ekspert Qubad İbadoğlu bildirdi ki, əksər ölkələrdə bu sistem avtomatlaşdırılıb və xüsusi bankomatlar vasitəsilə həyata keçirilir:** ““Tax-free” ilə bağlı dünya təcrübəsində müxtəlif yanaşmalar var. Bir çox ölkələrdə xüsusi qəbzlərdən istifadə olunur. Həmin qəbzlərə xüsusi möhür vurulmalıdır. Ölkəni tərk edərkən həmin qəbzlər gömrük orqanlarına təqdim olunmalıdır. “Tax-free”nin necə ödənilməsi ilə bağlı da müxtəlif yanaşmalar var. Türkiyədə nağd şəkildə ödəyirlər, ancaq Avropanın heç bir ölkəsində “tax-free”ni nağd şəkildə ödəmirlər. Sadəcə, kart göstəricilərini təqdim edirsən, sonra həmin məbləğ bank hesabına köçürülür. Ancaq mən heç bir ölkədə görməmişəm ki, həmin məbləğin 20 faizi bank xidmətləri üçün tutulsun. Xidmət haqqı 1-2 faiz ola bilər. Bəzi ölkələrin praktikasında isə bu işlə heç bir orqan məşğul olmur. Xüsusi avtomatlar var və həmin avtomatlara məlumatları daxil edirsən. Eyni zamanda həmin avtomatlarda məlumatları yerləşdirəndən sonra bank hesabı haqqında informasiya verirsən. Daha sonra həmin bankomatdan “tax-free” məbləği sizin bank hesabınıza köçürülür. Bəzi ölkələrdə bunun avtomatlaşdırılmış sistemi var. Bu avtomatlar adətən ölkənin sərhədlərini tərk edən yerlərdə, hava limanlarında olur. “Tax-free” üçün təqdim olunan ödəniş sənədləri adi ödəniş sənədlərindən fərqli olur. Onları möhürləyirlər, istehlakçının məlumatları həmin sənəddə yerləşdirilir, hansı ölkənin vətəndaşı olması, pasportunun nömrəsi və sair qeyd olunur».

**Qubad İbadoğlu onu da qeyd etdi ki, burada ən qəribə məqam ƏDV məbləğindən 20 faiz həcmində xidmət haqqı tutulmasıdır:** “Ən böyük fərq odur ki, bizdə bank xidməti üçün məbləğin 20 faizi tutulur, bu təcrübə heç yerdə yoxdur. ”Tax-free" ixracatı stimullaşdırmaq üçündür. Azərbaycana gələn turistlər bizim yerli məhsullarımızı xaricə aparanda ƏDV-ni geri alırlar və bu da bir stimul olur. “Tax-free”nin yerli vətəndaşlara tətbiq olunması da yalnız o halda uğurlu ola bilər ki, bizim vətəndaşlar onu xaricə aparsınlar. “Tax-free”də önəmli olan məqam odur ki, məhsul ölkədən kənara aparılsın. Kimlərsə məhsullarımızı şəxsi istehlak üçün, kimlərsə kommersiya məqsədilə apara bilər. Burada aydınlaşdırılmalı olan məqamlar çoxdur. Şoppinq festivalı da ona görə keçiriblər ki, turistləri Azərbaycan məhsulu almağa həvəsləndirsinlər. Bu festival yerli əhali üçün olmamalıdır, turistlər üçün olmalıdır. Yerli vətəndaşlar üçün kimsə malını ucuz satmaq istəyisə, sadəcə, endirim edə bilər. Endirimli mal alışı ilə ƏDV-nin geri qaytarılması arasında heç bir fərq yoxdur. Bu, mənasız bir sistemdir. “Tax-free” ona görə tətbiq olunur ki, turistlərin alış-verişə marağı olsun, ölkəmizə gələndə daha çox pul xərcləsinlər. Ölkədən çıxanda onun bir qismini qaytarmaq da onlarda stimul yaratmaq məqsədi daşıyır".

**İqtisadçının fikrincə, ölkə vətəndaşları üçün ƏDV-ni müvəqqəti bir müddətdə, məsələn, bir aylıq ləğv etmək olar:** “Belə bir praktika var. Bu zaman malı daha ucuz qiymətə satmaqla insanları vergidən azad etmək olar. Ancaq bu gün dövlət büdcəsinin əsas gəlir mənbələrindən biri ƏDV-dir. ƏDV-nin müəyyən bir müddətdə ləğv edilməsi büdcəyə daxilolmaların azalmasına gətirib çıxaracaq. Bundan süni istifadə halları da yarana bilər. Müəyyən şirkətlər bu zaman kəsimində mal satışının artımını yüksəltməklə ƏDV-dən yayına bilərlər. Belə kampaniyalar zamanı ciddi nəzarət lazımdır. Adətən əksər ölkələrdə ”tax-free" aksizli mallara tətbiq olunmur. Ərzaq məhsulları və dərmanlara tətbiq olunan ƏDV isə qeyri-ərzaq mallarına tətbiq olunan ƏDV-dən faiz baxımından aşağıdır. Məsələn, texnikaya görə tətbiq olunan vergi 18 faizdirsə, ərzağa bundan daha aşağı faizli ƏDV tətbiq olunur. Adətən texnikaya və geyim mallarına “tax-free” tətbiq olunur".

**İqtisadçı ekspert Natiq Cəfərli də hesab edir ki, “tax free” sistemindən əcnəbilərlə yanaşı, ölkə vətəndaşlarının da yararlanması bu sistemin mahiyyətinə ziddir:** “Bunu tətbiq edənlər bilmirlər ki, ”tax free" nə deməkdir, fəlsəfəsi nədir, niyə tətbiq olunur. “Tax free”- əcnəbi (məhz əcnəbi) vətəndaşlara ona görə tətbiq edilir ki, onlar mal aldığı ölkənin vətəndaşı deyillər, dolayısı ilə, ödədikləri vergi onlara xidmət üçün istifadə edilmir. Yəni vergi qismində ödədikləri məbləğ onlara xərclənmir, buna görə də “tax free” anlayışı icad olundu ki, əcnəbilərə vergi geri qaytarılsın. Nazirlik isə deyir ki, bu xidmətdən ölkə vətəndaşları da istifadə edəcək. Əgər belədirsə, o zaman ümumiyyətlə 1 ay ölkədə ƏDV-ni ləğv edin və daha sadə şəkildə insanlar bundan yararlansın. Bu onu göstərir ki, təşkilatçılar “tax free”nin nə olduğunu belə bilmirlər"

❑ Nərgiz LİFTİYEVA


**İZRAİL ƏNƏNƏSİ ƏSASINDA ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

**Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.**

- ✳ Diaqnozu bilinməyən ağır hallar;
- ✳ Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
- ✳ Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
- ✳ Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- ✳ Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- ✳ Sidikdə və spermada qan;
- ✳ Spermanın azalması, itməsi;
- ✳ Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;
- ✳ Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
- ✳ Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
- ✳ Tala-tala və hərtərəfli saçların tökülməsi;
- ✳ Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;
- ✳ Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
- ✳ Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- ✳ Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, (050) 213-88-05 nömrəsinə, d-r Vaiz Səmədova zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.




## Arvadını sevgilisi ilə tutan ev sahibinin başı kəsildi

**Aprelin 11-nə keçən gecə Bakıda qətl törədilib. Lent.az xəbər verir ki, hadisə Suraxanı rayonunun Binə südçülük sovxozu adlanan ərazidə baş verib. Suraxanı Rayon Polis İdarəsindən verilən məlumata görə, rayonun Binə südçülük sovxozu adlanan ərazisində kirayədə yaşayan, 1992-ci il təvəllüdlü İlkin Səməd oğlu Əhmədov ev sahibi, 1991-ci il təvəllüdlü Fial Elzibar oğlu İsmayılovu qətlə yetirib. Hadisə yerinə hüquq-mühafizə orqanlarının əməkdaşları gəlib. Meyitə ilkin baxış keçirilərkən onun üzərində 4 bıçaq zərbəsi və boğazının kəsildiyi məlum olub.**

İlkin araşdırmalarla müəyyən edilib ki, İ. Əhmədov uzun müddət F. İsmayılovun evində kirayədə yaşayıb. F. İsmayılov İ. Əhmədovun onun həyat yoldaşı ilə münasibətlərindən şübhələnib. O, səhər işə getmək adı ilə evdən çıxıb və tez geri dönüb. Evə qayıdarkən isə İ. Əhmədovu həyat yoldaşı ilə bir yerdə tutub. Nəticədə onların arasında dava düşüb və İ. Əhmədov F. İsmayılovu bıçaqlayıb.


**Elan**

**Mərkəzdə, “Gənclik” metrosunun çıxışında kupçalı tam 3 otaqlı daş ev, 5/4 orta blok. Su, qaz, işıq daimi. Nərimanov prokurorluğunun həyətində öz evimdir, orta təmirli. Qiyməti razılaşma ilə. Maklerlər narahat etməsin.**
**Əlaqə telefonu: (070) 399-01-00; (050) 234-64-67**

YENİ MÜSAVAT
N 75 (6689) 12 aprel 2017

**Yer kürəsinin hər yerində axtarışda olan insanlar var. Onlar bəzən böyük-böyük dövlətləri, liderləri, güc strukturlarını öz arxalarınca süründürürlər. İllər boyu axtarışda olanların başına böyük hallarda pul da qoyulur. Həm də fantastik məbləğlərdə. "Yeni Müsavat" bu hekayələri nəzərə çatdırır. Kimin başına nə qədər pul qoyulub? O pullar kimə və necə yetirilib?**



# Başına pul qoyulan terrorçular, prezidentlər və siyasətçilər

## Onların yerini deyən, öldürən milyonları qazanır...

### Əsgəri yaxalasanız, 200 min dollar alacaqsınız...

2014-cü ildə Ukrayna hərbçilərinin cəsədlərini lağa qoyan "yığma qoşun döyüşçüsü"nün tutulması üçün mükafat elan edilib. Ukraynalı biznesmen Rusiya Federasiyasının əsgəri Dmitri Qrisuku tutana 200 min dollar ödəməyə söz verib.

Naməlum qalmağı arzulayan Ukrayna biznesmeni öldürülmüş Ukrayna hərbçiləri ilə bağlı videonu sosial şəbəkəyə çıxardan Rusiya əsgərinin tutulması üçün 200 min dollar mükafat təyin edib. Bu haqda facebook səhifəsində ukraynalı jurnalist Yuri Butusov yazıb.

"Mənim şirkətim orduya, milisə, Milli Qvardiyaya və Antiterror Qrupuna ciddi dəstəyini göstərir. Amma mən öz şəxsi vəsaitimdən daha bir mükafat təyin etmək istəyirəm. Silahlı qüvvələrin, hüquq-mühafizə orqanlarının və ya Ukrayna xüsusi xidmət orqanlarının bölməsi Rusiya əclafı Dmitri Qrisuku sağ və ya ölü ələ keçirən 200 min dollar mükafat alacaq və bankda müstəqil hesaba keçiriləcək", - deyə biznesmen Butusova bildirib.

Jurnalist bildirib ki, biznesmenin belə mükafatı elan etməsinə səbəb Sankt-Peterburqdan olan rusiyalı Dmitri Qrisukun öldürülən Ukrayna hərbçiləri ilə fotonu və videosunu gördükdən sonra şoka düşməsi səbəb olub.

Xatırladaq ki, videoyazıda o, öldürülmüş ukraynalıların parçalanmış cəsədlərinin yanında gəzişir və nə gördüyünü şərh edir.

### Bəşər Əsəd üçün 450 min dollar?

2012-ci ildə Suriya prezidenti Bəşər Əsədin öldürülməsi üçün Ərəb şeyxi tərəfindən göstəriş verilib. Səudiyyə Ərəbistanın öndə gedən dini liderlərindən olan Əli əl-Rəbii Suriyada günahsız insanlara qarşı törədilən amansız qətl hadisələrindən qəzəblənərək Bəşəd Əsədi öldürənə 450 min dollar pul və xeyli sayda qiymətli hədiyyələr verəcəyini bildirib.

2015-ci ilin oktyabrında Suriyada rejim qüvvələrinə qarşı vuruşan "Əl-Nüsra" Cəbhəsinin lideri Əbu Məhəmməd əl-Culani digər qruplaşmalara birlik çağırışı edib. Culani twitter hesabında dərc olunan və 21 dəqiqə 6 saniyə davam edən səs yazısında Suriyada Rusiyanın müdaxiləsinə qarşı birləşməyin vacib olduğunu deyib. "Əl-Nüsra" Cəbhəsinin lideri həmçinin Dəməşq rejiminin tərəfində vuruşan "Hizbullah"ın rəhbəri Həsən Nəsrullah və Suriya prezidenti Bəşər Əsədi öldürənə mükafat veriləcəyini açıqlayıb. Əsədin başına 3 milyon, Nəsrullahı öldürənə isə 2 milyon avro veriləcək. Culani onları öldürən şəxsin təhlükəsizliyinin "Əl-Nüsra" Cəbhəsi tərəfindən təmin ediləcəyini söyləyib.



2015-ci ilin avqustunda Rusiyanın baş nazirinin keçmiş müavini Boris Nemtsovun ölümündə şübhəli bilinən Çeçenistanın Daxili İşlər Nazirliyinin keçmiş batalyon döyüşçüsü Zaur Dadayev cinayəti törətmək üçün sifarişçidən 500 min rubl (7 700 ABŞ dolları - red.) avans alıb. Bu haqda Dadayev dindirilmə zamanı bildirib. Dadayev istintaqda adı hallanan Rusikin ona sifarişin icra olunması təqdirində 15 milyon rubl vəd etdiyini deyib. Rusiya İstintaq Komitəsində Dadayev həbs olunarkən onun üzərində tapılan 100 min rublun da həmin hadisəyə görə alındığını düşünürlər.

2015-ci ildə Suriyadakı Rusiya qoşunları "Əl-Nüsra" Cəbhəsi yaraqlılarına endirilən aviazərbələrdən sonra islamçıların hədəfinə çevrilib. Onlar hər rus əsgərinin başına 1 milyon Suriya lirəsi məbləğində mükafat təyin ediblər. Bu barədə məlumatı rusiyalı jurnalist İlya Varlamov öz bloqunda yayıb. Jurnalist bu zaman "Əl-Nüsra" Cəbhəsinin twitter səhifəsinə istinad edib. "Yerli islamçılar, İŞİD yox, "Əl-Nüsra" Cəbhəsi bir rus əsgərinin başına 1 milyon Suriya lirəsi, yəni təxminən 10 min ABŞ dolları pul mükafatı təyin edib" - deyə İ.Varlamov yazır.

2014-cü ildə ABŞ şotlandiyalı David Hainesin başını kəsən şəxsin başına pul mükafatı qoyub. İngilis əsilli "Cihadçı Con" ləqəbli İŞİD (özünü İraq və Şam İslam Dövləti kimi təqdim edən terror təşkilatı) üzvünün saxlanmasına yardım edəcək şəxslərə 9,75 milyon dollar mükafat veriləcək. Conun tutulması üçün amerikalı və ingilis milli kəşfiyyatçıları bölgədə və İngiltərədə ciddi araşdırma aparırlar. ABŞ prezidenti Barak Obama isə İŞİD-in Suriyadakı qalası kimi bilinən Rakkada saxlandığı iddia olunan Conun öldürülməsi ilə bağlı təlimat verib.

Conun milli kəşfiyyat nümayəndələrinin kimliyini təsbit etdiyi deyilir. Onun terror təşkilatına qoşulmazdan əvvəl paytaxt Londonda yaşadığı məlum olub. Conun ailə üzvlərinin sorğuya cəlb olunduğu deyilir.

2014-cü ildə Ukraynanın Kremençuq şəhərinin meri, Azərbaycanın Gəncə şəhərində doğulmuş Oleq Babayevin qatillərinin adını söyləyənə mükafat veriləcək. Merin dostları O.Babayevi qətlə yetirən haqqında məlumat verənə 100 min qriven mükafat vəd edib. Merin dostları pul yığılması üçün xüsusi fond yaradıblar. **"Fonda artıq 100 min qriven (8,5 min dollar) yığılıb. Tanışları zəng edir, yeni vəsaitlər hazırlayırlar ki, cinayətkarlar tapılsın"**, - deyə Ukraynanın xalq deputatı Yuri Şapoval bildirib.

Milisdən bildirirlər ki, Oleq Babayevin qətli sifarişli olub. Hüquq-mühafizə orqanları bir neçə versiya üzərində işləyirlər. Qətl siyası, biznes və ya məişət xarakterli ola bilər.

Xatırladaq ki, Oleq Babayev evinin yaxınlığında öldürülüb. Ona 3 dəfə atəş açılıb. Atəş açan naməlum şəxs və ya şəxslər avtomobillə hadisə yerindən uzaqlaşıblar.

2015-ci ilin may ayında ABŞ hökuməti İŞİD terror qruplaşmasının 4 lideri haqda informasiyaya görə üst-üstə 20 milyon dollar mükafat ayırıb. Ən böyük məbləğ - 7 milyon dollar hörgütün liderlərindən olan Mustafa əl-Kaduli ilə bağlı informasiya üçün vəd edilib.

Bundan əlavə, Amerika hökuməti Əbu əl-Adnani və Gürcüstan əsilli Tarxan Batiraşvili üçün hərəsinə 5 milyon ayırıb. Tarik əl-Xarzinin başına isə 5 milyon dollar qoyulub.

### Putinin başına 100 milyon dollar?

Başına pul qoyulanlardan biri də Rusiya prezidenti Vladimir Putin olub. Bu ilin fevral ayında onun başına pul qoyulub. Vilayət rəhbərinin müavini Boris Filatov yeni bəyanatla çıxış edərək, Rusiya prezidenti Vladimir Putinin fiziki məhvinə görə 100 milyon dollar vəsait ödəməyə hazır olduqlarını bildirib. Filatov alternativ variant da təklif edərək, Rusiya dövlət başçısının fiziki məhvi alnmayacağı təqdirdə onun hakimiyyətdən getməsinə cəhd edənlərə də analoji civarda qonorar ödəməyə hazır olduğunu dilə gətirib. Qubernator müavini Filatov isə fikrini belə əsaslandırıb ki, iki qardaş xalqın üz-üzə gəlməsinin, günahsız əsgər və zabitlərin gərginlik altında qalmasının təkcə bir günahkarı var - o da Vladimir Putindir. Yeni təklifin şərtləri və tezisləri mayın 5-nə qədər bəyan ediləcək. Qeyd edək ki, ilk bu tip addımlar vilayət qubernatoru İqor Kolomoyski tərəfindən atılmışdı. O, separatçıları və müxtəlif çaplı silahları təhvil verənlərə müəyyən miqdarda pul ödəyəcəyini demişdi...





Müsəlman dünyasının qəzəbinə səbəb olan "Müsəmanların məsumiyyəti" filminin yaradıcısının başına 100 min dollar pul qoyulub.

Pakistanın dəmir yolu naziri Hacı Qulam Əhməd Bilur filmin yaradıcısını öldürənə 100 min dollar pul verəcəyini vəd edib. Nazir həmçinin bəyan edib ki, müsəlmanları təhqir etdiyi üçün sözügedən filmin rejissoru öldürülməlidir. Hacı Qulam Əhməd Bilur "Taliban" və "Əl Qaidə" terror qruplaşmalarına da Amerikalı rejissorun öldürülməsi ilə bağlı müraciət edib.

Qeyd edək ki, internet vasitəsilə yayımlanan "Müsəmanların məsumiyyəti" filmi Məhəmməd (s) peyğəmbəri təhqir etdiyi üçün müsəlman dünyasının ciddi narazılığına səbəb olub. Bir sıra müsəlman ölkələrində filmə etiraz olaraq ABŞ səfirliklərinə silahlı basqınlar edilib. Bu ölkənin Liviyadakı səfiri isə narazı kütlə tərəfindən yandırılaraq öldürülüb.

2014-cü ildə isə Ukraynada "LayfNyus" əməkdaşlarının başına pul qoyulmuşdu. Bu barədə "LayfNyus" telekanalının baş redaktoru Anatoli Suleymanov məlumat yayıb. Onun sözlərinə görə, telekanalın bir neçə əməkdaşının başına 20 min dollar mükafat qoyulub.

Bundan əvvəl bildirilmişdi ki, "LayfNyus" jurnalistləri Oleq Sidyakin və Marat Sayçenko Ukrayna Milli Qvardiyası tərəfindən Donetsk vilayətinin Kramatorsk şəhəri ərazisində saxlanılıb. Media-holdinqin rəhbərliyi Rusiya Xarici İşlər Nazirliyinə onların sərbəst buraxılmasına kömək üçün müraciət edib: **"Əməkdaşlarımızın bəzilərinin başına 10 min dollar mükafat qoyulması haqqında 100 faizlik məlumat var. Ancaq indi mükafat 20 min dollara qaldırılıb"**, - deyə Suleymanov "Rusiya xəbər xidmətin"ə bildirib.

Suleymanovun sözlərinə görə, telekanalın jurnalistləri Oleq Sedyakin və Marat Sayçenko Kramatorskda Milli Qvardiyanın BMT nişanlı helikopterlər tətbiq etməsi haqqında materialı çıxandan sonra təqib olunmağa başlayıb.

### Öldürənə 130 min dollar, yerini deyənə 13 min dollar

Bu ilin mayında Misirin Sina yarımadasındakı tayfalar İŞİD-ə biət etdiyini açıqlayan "Sina vilayəti" adlı təşkilatın liderlərindən olan Şadi əl-Muininin başına mükafat qoyub. Ərəb mediası xəbər verir ki, Ailələr və Tayfa Gəncləri Birliyi onu öldürənə 130 min dollar, yerini söyləyənə isə 13 min dollar mükafat veriləcəyini açıqlayıb.

Birlikdən verilən məlumata görə, Muininin Qəzzaya qaçdığına dair dəqiq məlumatlar var. Tərabin tayfasının liderlərindən olan Musa ed-Delh isə Sina yarımadasında İŞİD-lə silahlı qarşıdurmaya getməyəcəyini söyləyib.

Qeyd edək ki, Misir ərazisində fəaliyyət göstərən və orduya hücumları ilə tanınan "Ənsar Beyt əl-Makdis" qruplaşması İŞİD-ə biət etdiyini açıqlayandan sonra "Sina vilayəti" adlandırılıb.

### Hüsnü Mübarəkin başı 1 milyon dollaradır?

2009-cu ildə İranda Misir prezidenti Hüsnü Mübarəkin başına pul qoyulmuşdu. İran İnqilab Keşikçiləri Korpusu nəzdində fəaliyyət göstərən "Bəsic" təşkilatının tələbələrdən ibarət qanadı bəyan edib ki, H.Mübarəki qətlə yetirə biləcək şəxsə 1 milyon dollar mükafat veriləcək. Təşkilat bu addımını Misirin sərhədyanı Rəfah keçid məntəqəsini fələstinlilərin üzünə bağlaması ilə əsaslandırıb. "Bəsic" Misirin dövlət başçısını "terrorçu" adlandırmaqdan da çəkinməyib. "Beynəlxalq terrorçu olan Hüsnü Mübarəki dünyanın istənilən nöqtəsində qətlə yetirə biləcək şəxsə 1 milyon dollar mükafat veriləcək", - deyə təşkilatın bəyanatında bildirilir.

İranın daha bir birliyi bu qərarı dəstəkləyib. Tehrandan Qəzzaya könüllülərin səfərbərliyi ilə məşğul olan Beynəlxalq İslam Şəhidləri Hərəkatının nümayəndəsi Firuz Rəcayi jurnalistlərlə söhbətində bildirib ki, onlar H.Mübarəkin qətli ilə bağlı mükafat ayrılmasına dəstək verirlər. O, lazım gələrsə, bu mükafatın məbləğinin daha da artırıla biləcəyini istisna etməyib.

❑ **Sevinc TELMANQIZI**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 75 (6689) 12 aprel 2017*




## Amerikada sərnişinləri sürüyərək təyyarədən yerə endirdilər

"United Airlines" hava yolu şirkəti yol verdiyi bir yanlışlığı növbəti yanlışlıqla "rəngləndirib". Belə ki, bir bileti iki nəfərə satan şirkət sərnişinləri təyyarədən zorla yerə endirib. ABŞ-ın ən böyük hava yollarından sayılan "United Airline" şirkətinin bu cür yanlışlara yol verməsi isə sıradan deyil. Belə ki, o, "overbook" sərnişinləri təyyarədən düşməyə razı sala bilmədiyi üçün onları sürüyərək yerə endirib. Amerikanın "United" hava yollarında bilet ləğvinə qarşı təyyarə doluluğunu qorumaq üçün tətbiq olunan və "overbook" olaraq bilinən ikili bilet satışı qalmaqalla nəticələnib. Çikaqo təyyarəsində 4 sərnişinin artıq olduğunu deyən şirkət yetkililəri öncə təyyarədən könüllü düşmək istəyənlərə 800 dollar təzminat ödəniləcəyini açıqlayıb. Amma təyyarədə heç kim könüllü olmadığı üçün 4 sərnişin zorla yerə endirilib.

# İlan şelfi çəkdirmək istəyən kişini vurdu

Hindistanın Cordxpur şəhərində kobra onunla şelfi çəkdirmək istəyən turisti dişləyib. "Daily Mail" qəzetinin xəbərinə görə, ilanla poza verən turist birdən-birə pis sürprizlə qarşılaşıb. Kobra turisti boğazından dişləyib. Kişi baş verənləri bir neçə dəqiqə sonra dərk edib və ardınca da şüurunu itirib. Nəşrin xəbərinə görə, turist ilanın dişləməsindən bir saat sonra ölüb. Kobranın hansı növünün turistə hücum etdiyi isə açıqlanmır. Amma sözügedən ərazidə ilanın ən geniş yayılan növü eynəkli ilandır. (Hindistan kobrası) Fevral ayında məlum olub ki, Hindistanın Mumbay şəhərində zooməkrəzin işçisi



Somnat Mxatre kobranın dişləməsi nəticəsində dünyasını dəyişib. Buna səbəb isə kişinin kobranı öpmək istəməsi olub. 18 yaşlı könüllü ilanların qayğısına qalırdı və daha öncə 100-ə yaxın heyvanı xilas etmişdi.

# Paket salatdan yarasa ölüsü çıxdı, firma üzr istədi

Amerikanın pərakəndə satış üzrə iri firması - "Valmart"ın istehsal etdiyi bir salat növü ölkədə ciddi etiraza səbəb olub. Belə ki, Floridadakı müştərilər salat paketlərindən birinin içində çürüyən bir yarasa tapıblar. "Organic Marketsidə Spring" Mix adlı salatı yeməyə başladıqdan sonra yarasanı tapan iki müştəri üzərində quduz testi keçirildi. Şirkət çağırış verib ki, ölkənin cənubunda satılan paket salatı daha öncə alanlar onu atsınlar. "Valmart" eyni zamanda salatı satın alanların ödədiyi pulun geri veriləcəyini də bildirdi. Amma ölü yarasanı salatın içindən tapan şəxslərin səhhəti qaydasındadır və onlarda quduz xəstəliyinin hər hansı izinə rast gəlinməyib. Məsləhət görülür ki, yedikləri salatlarda heyvan qalıntısı tapanlar sağlıq mərkəzlərinə müraciət etsinlər. Ölü yarasanın paket salatın içinə necə düşməsi isə sual olaraq qalır.





## Oğurluq edib, polis dayanacağında gizləndi

Çinin Şençjen şəhərində mobil telefon oğurlayan kişi səhvən polis bölməsinin ərazisində gizlənib. İzləmə kameraları cinayət anını qeydə alıblar. Görüntülərdən üzə çıxır ki, oğru yolda gedən qızın telefonunu oğurlayıb qaçır. Qız onun dalınca qaçmağa çalışsa da, yolda yad bir adamla toqquşub yerə yıxılır. Cinayətkar isə hərəkət sürətini belə azaltmadan polis dayanacağına tərəf qaçır. O, birdən səhvə yol verdiyinin fərqinə varır və təəccüblə gözlərini döyür. Həmin anda isə şahidlər və zərərçəkmiş onun başının üstünü kəsdirir. Oğru hüquq-mühafizə orqanı əməkdaşına təslim olur və telefonu geri qaytarır. Polis xəbər verir ki, kişi yol verdiyi cinayəti boynuna alıb. O, öz hərəkətlərini belə izah edib ki, olduğu məkan barədə məlumatı olmayıb və ona görə də polis bölməsinə yönəlib. Mart ayında da Amerikada bir nəfər oğurluq edərkən mağazanın vitrinində özünü ələ vermişdi.




QOÇ - Proseslərin ləng inkişafını nəzərə alıb istirahətə daha çox üstünlük verin. Əgər qonaqlığa dəvət alsanız, məmnuniyyətlə qəbul edin. Ümumi zəifliyinizə görə, qidanıza da yaxşıca fikir verməlisiniz.

BUĞA - Şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şansınız olacaq. Odur ki, bu istiqamətdə bütün gücünüzü səfərbər edin. Nahardan sonra ağır fiziki işlərdən, nabələd adamlarla danışıqdan yayının.

ƏKİZLƏR - Təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, uzaqdan sevindirici xəbər alasınız. Hər halda, ovqatınız xoş olacaq. Nəqliyyat vasitələrində isə maksimum ehtiyatlı olmalısınız.

XƏRÇƏNG - İkitərəfli əməkdaşlıq üçün düşərli vaxtdır. Buna baxmayaraq, müqavilə bağladığınız adamlarla ehtiyatlı davranın. Qlobal məsələlərin həllində təşəbbüskarlığı da əldən verməyin.

ŞİR - Ulduzların düzümü sağlıq durumunuzda problem olduğunu göstərməkdədir. Bu səbəbdən də qida və yuxu rejiminizə, həmçinin daxili orqanlarınıza ciddi fikir verməlisiniz.

QIZ - Bütün göstəricilər səfərlərə çıxmaqdan məmnunluq duyacağınızı xəbər verir. Elə isə vaxtı fövtə verməyin. Bu gün fəaliyyətlə bağlı işlər üçün o qədər də uğurlu vaxt deyil.

TƏRƏZİ - Kifayət qədər uğurlu gündür. Qarşıya qoyduğunuz planların böyük əksəriyyətini reallaşdıra biləcəksiniz. Maraqlı görüş və tanışlıqlar da mümkündür. Uzaq yola çıxmayın.

ƏQRƏB - Əgər sağlıq durumunuzu, xüsusən də daxili orqanlarınızı nəzarətdə saxlaya bilsəniz, gün ərzində digər xoşagəlməzliklə rastlaşmayacaqsınız. Maddi mövqeyinizi möhkəmləndirmək üçün hərəkətə keçin.

OXATAN - Yaxşı olar ki, bu təqvimdə bütün işlərinizi təxirə salasınız. Çünki fiziki yorğunluğunuzun ifratçılığı aktivliyinizə mane olacaq. Vaxt tapıb yaxın dostlarınıza baş çəkin, təbiət qoynuna çıxın.

OĞLAQ - Saat 14-ə qədər neytarllıq nümayiş etdirməyiniz məsləhətdir. Sizə aidiyyəti olmayan məsələlərə müdaxilə etməyin. Sonrakı müddətdə isə perspektivli sövdələşmələr gözlənilir.

SUTÖKƏN - İntiqam hissi, gərgin situasiyalara şərh vermək, münasibəti korlanmış iki nəfər arasında vasitəçilik etmək sizə zərər yetirə bilər. Buna görə də yalnız özünüzə aid işlərlə məşğul olun.

BALIQLAR - Bu gün ümumi əhvalınızda xoş məqamlar çox olacaq. Ələlxüsus da saat 15-dən sonra bütün cəhdləriniz baş tutacaq. Əsas vaxtınızı isə ailə-sevgi münasibətlərinə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Atan içirsə, sən də içəcəksən...



İngiltərədə keçirilən bir araşdırma bir genin alkoqollu içkidən istifadə ilə bağlı ola biləcəyini ortaya qoyub. Paytaxtı Londonda olan King's College London Universitetinin araşdırmasına görə, bədənində RASGRF-2 adlı gen olan insanlar alkoqollu içkidən istifadəyə digərlərindən daha meyllidir. Bu genə sahib olmayan insanlar isə alkoqola qarşı az istək duyur. Araşdırmaya görə, alkoqollu içki qəbul edən şəxsin bədənindəki bu gen avtomatik olaraq xoşbəxtlik yaradan dopamin hormonunun ifrazını da artırır. Amerikada aparılan bir araşdırmaya görə hər 6 nəfərdən birinin alkoqol problemi var. Yaşları 12-20 arasında dəyişən 10.4 milyon insan etiraf edib ki, bir neçə qurtumdan artığını içirlər. 15 yaşındakı gənclərin 70 faizinin isə ən azı 1 qədəh nəsə içdiyi ortaya çıxıb.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100